**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**VƏSİXANIM MEYLAQULU qızı ORUCOVA**

# BAZAR İQTİSADİYYATINA KEÇİD: ZİDDİYYƏTLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI
**(sosial-fəlsəfi təhlil)**

7207.01 – Sosial fəlsəfə

Fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**B A K I – 2017**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Fəlsəfə" kafedrasında yerinə yetirilmişdir.

**Rəsmi opponentlər:** **Füzuli Məhəmməd oğlu Qurbanov**
Fəlsəfə üzrə elmlər doktoru

**Əyyub Sevdim oğlu Kərimov**
Fəlsəfə üzrə elmlər doktoru

**Dünyamalı Əmir oğlu Vəliyev**
İqtisadiyyat elmləri doktoru

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası**

Müdafiə ____________2017-ci il saat _____ -da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutu nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcələri almaq üçün fəaliyyət göstərən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı Az-1143, H.Cavid prospekti, 115. Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat _________________ 2017-ci il tarixində göndərilmişdir.

**D.01.115 Dissertasiya Şurasının elmi katibi,fəlsəfə üzrə fəlsəfə doktoru:** **Sevinc Arif qızı Həsənova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müstəqil dövlət quruculuğu prosesində bazar iqtisadiyyatına keçid dövrünün ziddiyyətlərinin, onların səbəbləri, təsir dairəsi, həlli yolları və sosial nəticələrinin müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

XX əsrin 70-ci illərindən etibarən SSRİ-də həll olunmamış problemlərin artması nəticəsində sosial korroziya ünsürlərinin cəmiyyətin mənəvi əhval-ruhiyyəsinə mənfi təsiri ləngitmə mexanizmi yaratmış, cəmiyyət üzvlərinin həyat tərzini deformasiyaya uğratmışdı. Nəticədə cəmiyyətin obyektiv vəziyyəti böhranla, sosial gərginliyin artması, milli zəmində münaqişələrin çoxalması və s. ilə səciyyələnmişdir.

Keçilmiş yola nəzər salsaq, SSRİ-nin süqutu bir sıra amillərlə bağlı idi:

- hakim ideologiya olan marksizm-leninizmin real həyatla əlaqəsinin zəifləməsi;
- partiya diktaturası və partiya bürokratiyasının mövcudluğu;
- sosialist iqtisadi sisteminin səmərəsizliyi;
- milli-azadlıq hərəkatının başlanması və milli münasibətlərin kəskinləşməsi;
- müstəqillik və demokratiya uğrunda mübarizənin geniş vüsət alması.

Beləliklə, ziddiyyətlərin kəskinləşməsi, siyasi böhranın dərinləşməsi, iqtisadi tənəzzül, sosial problemlərə laqeydlik yeni tipli cəmiyyətə keçidi obyektiv zərurətə çevirdi. Sosializm sisteminin süqutu siyasi böhranın nəticəsi olsa da, iqtisadi bazisin dağılması və sosial struktur dəyişiklikləri yeni cəmiyyətə keçidin əsasını qoydu. İqtisadi, siyasi, sosial sahələri əhatə edən dəyişikliklər həm mənfi, həm də mütərəqqi proseslərlə əlaqədar idi. Bu proseslərin dərindən təqdid edilməsi mənfi meyllərin qarşısını almaq, mütərəqqi cəhətləri isə sistemin ümumi inkişafına yönəltmək baxımından elmi və praktiki əhəmiyyətə malikdir.

XX əsrin 80-ci illərinin sonlarında Polşa, Macarıstan, ADR, Rumıniya, Çexoslavakiya, Bolqarıstan, Albaniya və SSRİ-də dərin sosial, iqtisadi böhranlar baş verdi. Müxalif hərəkatlar xüsusi mülkiyyətin yaradılması, çoxpartiyalı sistemin formalaşdırılması, vətəndaş hüquq və azadlıqlarının təmin olunması şüarları ilə çıxış etməyə başladılar. İqtisadi və siyasi islahatların həyata keçirilməsi ilə müşayiət olunan bu proseslər sosializm sisteminin böhranını daha da

dərinləşdirdi.

Bu gün sovet cəmiyyətinin keçdiyi tarixi yola tənqidi nəzər ibrət dərsi götürməyə və nəticə çıxarmağa imkan verir, irəliləyişin vasitə və yollarının düzgün seçilməsinə kömək edir. Yeni siyasi təfəkkür ideoloji cərəyanlara obyektiv qiymət verməyi, konkret daxili şəraiti, zaman və məkan göstəricilərini nəzərə almaqla onları tədqiq və təhlil etməyi tələb edir. Yalnız mövcud səhvləri daha ətraflı təhlil etməklə cəmiyyətdə gedən proseslərin obyektiv qanunauyğunluqlarını aşkar etmək mümkündür.

Uzun illər nəzəri fikir gerçəklik problemlərinə və ziddiyyətlərə nüfuz etmədiyindən, cəmiyyətin real vəziyyəti elmi araşdırmaların obyektinə çevrilmədiyindən tədqiqat işlərində sözçülük, bəzək-düzək, mücərrəd mühakimələr əsas yer tutmuş, nəzəriyyə ilə real gerçəklik arasında uyğunsuzluğun yaranması sosial elmlərin nüfuzuna sarsıdıcı zərbə vurmuşdur. Bu nüfuzu bərpa etmək üçün nəzəriyyə ilə praktika arasındakı uyğunsuzluğu aradan qaldırmaq, tədqiqatları sxolastik nəzəriyyəçilikdən xilas etmək, yeni şəraitdə ideya, fikir plüralizminə geniş yer vermək, ali məktəblər üçün mükəmməl dərslik və proqramlar hazırlamaq lazımdır. Cəmiyyətdəki ziddiyyətlərin həlli üçün əsaslandırılmış tövsiyələrin işlənib hazırlanması sosial elmlərin təxirəsalınmaz vəzifəsi olmalıdır.

Hər bir nəzəriyyə öz obyekti hüdudunda mütləq həqiqət kimi qəbul edilə bilməz. O şərtidir və daim dəqiqləşdirilməli, yenidən işlənməlidir. V.A.Lektorskinin qeyd etdiyi kimi, bu gün heç bir fəlsəfi konsepsiya fəlsəfənin qarşısında duran məsələlərə tam və düzgün cavab vermək iqtidarında deyil [1] . Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı artır.[2]

Elmi nəzəriyyələr praktikadan doğmalı və praktikada da reallığa çevrilməlidir. Yalnız nəzəri müddəaların dərin təhlili, onların real həyat faktları ilə qarşılaşdırılması nəticəsində elmi biliklər əqidəyə çevrilə bilər.

Bu gün realizm nəzəriyyədə və təsərrüfatçılıq praktikasında müstəsna dərəcədə vacibdir. Məhz nəzəriyyəni real gerçəkliyə yaradıcılıqla tətbiq etmək sayəsində cəmiyyətdə baş verən prosesləri dərindən və hərtərəfli təhlil etmək, vaxtı çatmış tələbatları aşkara

---

[1] Круглый стол // Вопросы философии, 2004, №4, с. 6

[2] Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında, Bakı, 2009

çıxarmaq mümkündür. Bu, ölkənin inkişaf perspektivini düzgün müəyyənləşdirməyə, mövcud problemlərin həlli yolları və üsullarını tapmağa kömək edir, quruculuq işlərinə mütəşəkkil, məqsədyönlü xarakter verir.

XX əsrin 70-ci illərində və 80-ci illərin əvvəllərində bir sıra mənfi meyllər və hadisələr ictimai inkişafa təsir etmiş, onun dinamizmini pozmuş, artım sürətini nəzərə çarpacaq dərəcədə azaltmışdı. Buna görə də mövcud maddi-texniki baza sosializmin prinsip və məqsədlərini tam həyata keçirməyə, onun üstünlüklərini aşkar etməyə imkan vermirdi.

Cəmiyyət həyatının müxtəlif sahələrində təzahür edən ləngitmə mexanizmi demokratiyanın məhdud fəaliyyəti, köhnəlmiş siyasi və nəzəri müddəalar kütlə şüuruna inamsızlıq zəminində yaranmışdı. Bu, istehsal münasibətlərinin köhnəlmiş formalarını, idarəetmənin inzibati-amirlik sistemini və bürokratiyanı, cəmiyyət haqqında doqmatik təsəvvürləri əks etdirirdi.

Sosial-iqtisadi sahədə ləngitmə mexanizminin fəaliyyəti iqtisadiyyatın inzibati-bürokratik metodlarla idarə olunmasında, müəssisələrin müstəqillikdən, hüquq və məsuliyyətdən məhrum edilməsində, təsərrüfat hesabının, kollektiv və ailə podratının imkanlarının nəzərə alınmamasında, sosial sahənin və insan amilinin rolunun qiymətləndirilməməsində; siyasi sahədə siyasi sistemin təşkilində demokratiyanın məhdudlaşdırılmasında, yerli idarəetmə orqanlarının təşəbbüskarlıq və məsuliyyətdən məhrum edilməsində; mənəvi sahədə yaradıcı fəaliyyətdə azadlığın məhdudlaşdırılmasında; elm və təhsildə doqmatizm, şəxsiyyətə pərəstiş şəklində təzahür edirdi. Ləngitmə mexanizminin daşıyıcıları inzibati-amirlik üsulu ilə idarə edənlər idi ki, onlar sosial həyatın demokratikləşdirilməsi prosesinə, işdə səmərəli metodlardan istifadə edilməsi və yeniliyin tətbiq edilməsinə, iqtisadiyyatda struktur dəyişikliklərin həyata keçirilməsinə müqavimət göstərirdilər. Bürokratlar, mühafizəkarlar, doqmatiklər, bərabərçilik tərəfdarları və tənbəllər ləngitmə mexanizminin sosial daşıyıcıları olduğu üçün onlara qarşı uzun müddət və ardıcıl mübarizə aparılmalıdır.

Ölkədə vəziyyətin getdikcə pisləşməsi artıq belə bir qənaətə gəlməyə sövq edirdi ki, əvvəlki qayda ilə yaşamaq qeyri-mümkündür, dəyişikliklər isə labüddür. Beləliklə, ölkədə yaranmış mürəkkəb siyasi şəraitdə partiya sürətləndirmə, yenidənqurma və yeniləşmə yolunu seçdi. Yenidənqurmanın zəruriliyi cəmiyyətin inkişafında artan ziddiyyətlərdən irəli gəlmişdi. Həmin ziddiyyətlər vaxtında öz həllini tapmadığından əslində təhlükəli formalar almışdı. Yenidənqurma ilk növbədə ləngitmə mexanizminin əsas vəsilələrinin yaratdığı ziddiyyətlərin aradan

qaldırılmasına yönəlmişdi. Ölkədə gedən yeniləşmə prosesi ciddi maneələrlə qarşılaşdığı üçün yenidənqurmanın iqtisadi, sosial-siyasi cəhətdən əsaslandırılması vacib idi. Yenidənqurma ideyası ölkənin ictimai həyatının səfərbəredici ideyası kimi yaransa da, o, cəmiyyət həyatını keyfiyyətcə yeniləşdirmək məqsədinə nail olmadı. Halbuki sosializmin müqəddəratı üçün bu siyasətin həlledici əhəmiyyəti var idi. O, məhsuldar qüvvələrdə və istehsal münasibətlərində əsaslı dəyişikliklər yaratmalı, ictimai və siyasi strukturları yeniləşdirməli, mənəvi həyatın yaradıcı xarakterini gücləndirməli idi.

Keçilən yola tənqidi nəzər və müasir durumun təhlili göstərir ki, durğunluq üçün obyektiv səbəblərlə yanaşı, subyektiv səbəblər də mövcud idi. Bu dövrdə ölkə rəhbərliyinin dəyişikliklərin zəruriliyinə, böhran hallarının artma təhlükəsinə vaxtında qiymət verməməsi və onların aradan qaldırılması üçün düzgün xətt müəyyənləşdirməməsi vəziyyəti ağırlaşdırdı, ziddiyyətləri daha da kəskinləşdirdi.

Müstəqillliyin ilk illərində (1991-1995) cəmiyyətin mürəkkəb problemlərlə üzləşməsi, sosial-iqtisadi çətinliklər, daxili və xarici qüvvələrin təxribatları, iqtisadi əlaqələrin pozulması, hakimiyyət dəyişikliyi Azərbaycan dövlətinin suverenliyi üçün böyük təhlükə yaratdı. Konstitusiyanın qəbulunun gecikməsi, siyasi modelin qeyri-müəyyənliyi cəmiyyətdə xaosun, anarxiyanın, hüquqi nehilizmin artmasına, ziddiyyətlərin dərinləşməsi və miqyasının genişlənməsinə səbəb oldu.Müstəqillik dövrünün bu mərhələsi ziddiyyətlərin daha çox təzahürü ilə səciyyələnir. Odur ki, dissertasiya işində bu dövrün tədqiqinə və analitik təhlilinə xüsusi diqqət yetirilmişdir.

Bu dövrdə ölkənin qarşısında diktaturadan demokratiyaya, planlı sovet iqtisadiyyatından bazar iqtisadiyyatına keçmək, islahatlar həyata keçirmək, siyasi və iqtisadi sabitliyə nail olmaq, hüquqi və dünyəvi dövlət yaratmaq kimi mühüm vəzifələr dururdu və hakimiyyət uğrunda mübarizə aparan siyasi qüvvələrin birləşməsi və cəmiyyətin siyasi inkişafı naminə konsensusa gəlməsi böyük əhəmiyyət kəsb edirdi.

Uzun illər cəmiyyət üzvləri siyasi etiraz hərəkatını kənardan seyr etməklə kifayətlənsələr də, sonralar onların hadisələrin ziddiyyətli xarakterini daha yaxşı dərk etməsi müəyyən amillərlə bağlı idi:

- cəmiyyətin siyasi, iqtisadi, mədəni həyatını elmi cəhətdən öyrənmək meylinin artması;
- siyasi biliklərin müxtəlif siyasi oyunların mahiyyətini dərk etməyə, xaosdan xilas olmağa, cəmiyyətdə vicdanlı mövqe tutmağa imkan verməsi;

- siyasi rejimin təbiətinin insanlara öz hüquq və azadlıqlarından səmərəli istifadə etmək üçün şərait yaratması.

Cəmiyyətdə əsaslı islahatların aparılması, ictimai inkişaf proseslərinin şüurlu və planauyğun tənzimlənməsi qarşıya qoyulmuş vəzifələrin uğurlu həllini təmin edən siyasətin işlənib hazırlanması və həyata keçirilməsi zərurətini yaratdı. Bu, respublikadakı mürəkkəb sosial-siyasi vəziyyətlə bağlı idi. Mürəkkəblik siyasi sistemin və dövlət strukturlarının dağılması, mövcud ideologiyadan imtina edilməsi, yenisinin isə hələ yaradılmaması, quruculuq işlərinin ləng getməsi, erməni hərbi müdaxiləsi, müharibənin törətdiyi faciələrin dərinləşməsi ilə əlaqədar idi. Respublikada mövcud sosial-iqtisadi gərginliyin həm xaricdə, həm də daxildə ziddiyyətli, mürəkkəb kökləri var idi.

Bazar münasibətlərinə keçid Sovet dövlətinin süqutu ilə eyni vaxta təsadüf etmişdi. Ona görə də həm müstəqil dövlət quruculuğunu həyata keçirmək, həm də bazar strukturlarını formalaşdırmaq çox çətin idi. Bundan istifadə edən Rusiya digər respublikalara qarşı öz imperiya məqsədlərini həyata keçirmək üçün iqtisadiyyat sahəsində ikili siyasət yeridirdi. Bir tərəfdən o, xaricdən kömək almaq məqsədi ilə Qərbin diqtəsinə müvafiq «şok terapeyası» üzrə islahat keçirir, iqtisadiyyatın maliyyə-pul sistemini sağlamlaşdırdıqdan sonra bazar mexanizminin atributlarını işə salmaqla böhrandan çıxmağa çalışırdı. Digər tərəfdən isə o, MDB-nin iqtisadi məkanındakı inhisarçı və hegemon rolundan, iqtisadi müdaxilə vasitələrindən istifadə edərək bütün respublikaları özündən asılı vəziyyətdə saxlamağa çalışırdı. Köhnə mərkəzin dağılmasına baxmayaraq, Rusiya Azərbaycan iqtisadiyyatını yeni mərkəzdən pul, qiymət mexanizmi və s. vasitəsi ilə idarə etməyə cəhd göstərirdi.

Bütün bunların nəticəsi idi ki, müstəqilliyin ilk illərində respublikada totalitar rejim münasibətlərindən azad bazar münasibətlərinə keçid ləng və çətin getmişdir. Bu prosesə islahatların gedişinə məsul olan şəxslərin ikili münasibəti də mənfi təsir göstərmişdir. Belə ki, onlar bir tərəfdən özəlləşdirmənin həyata keçirilməsinə qarşı çıxır, qiymətlərə sərt nəzarət tətbiq etməyi, dövlət sifarişini artırmağı lazım bilirdilərsə, digər tərfdən bazar iqtisadiyyatına keçidin zəruriliyini qeyd edirdilər. Bu dövrdə həm də cəmiyyətdə bazar münasibətlərinə uyğun qanunların və onların icra mexanizminin olmaması iqtisadiyyatı iflic vəziyyətinə salmışdı.

Müstəqilliyin ilk illərində iqtidarın yeritdiyi səhv siyasət ölkəni böyük problemlərlə üz-üzə qoydu. Siyasi qarşıdurma, vətəndaş

müharibəsi təhlükəsi, ümumi böhran, iqtisadi tənəzzül, etnik separatizm, müharibə Azərbaycanın öz suverenliyini itirmək qorxusunu yaratdı. Bu dövrdə hakimiyyət dəyişikliyi xaosdan qurtuluşa, böhrandan sabitliyə və inkişafa keçidin əsasını qoydu. Demokratik tranzitin radikal yolla deyil, təkamül yolu ilə həyata keçirilməsinə üstünlük verən Ümummilli lider Heydər Əliyev demişdir: " Demokratiya daim inkişafda olan bir prosesdir. Bu, bir mərhələdən o birinə qədər təkmilləşmə yolu ilə getməlidir. Bu təkmilləşmə inqilabı yolla yox, təkamül yolu ilə olmalıdır ".

Mövcud çətinlikləri aradan qaldırmaq üçün aydın, prinsipial siyasi xətt, güclü ideologiya və vahid məqsəd tələb olunurdu. Bunun üçün isə qrup mənafeyindən ümummilli mənafe səviyyəsinə yüksəlmək, cəmiyyət qarşısında duran vəzifələrə insanlarda maraq və şüurlu münasibət oyatmaq, nəzərdə tutulan sosial-iqtisadi dəyişikliklərin labüdlüyünə onları inandırmaq lazım idi.

Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi həyatında baş verən keyfiyyət dəyişiklikləri bir daha təsdiq edir ki, inkişaf strategiyası uğurla həyata keçirilir və bu inkişaf modeli milli maraqlara, dinamik inkişafa və beynəlxalq aləmdə dövlətin nüfuzunun artmasına xidmət edir.

Bununla yanaşı dövlət başçısı İlham Əliyev cəmiyyətdə bir sıra problemlərin hələ də mövcudluğunu dəfələrlə etiraf etmiş və hökuməti problemləri gizlətməməyə, əksinə, onları hər cəhətdən öyrənməyə, təhlil etməyə və aradan qaldırmağa çağırmışdır: "Biz problemləri gizlətməməliyik. Necə deyərlər, elə bir təsəvvür yaratmamalıyıq ki, hər şey yaxşıdır. Hər şey yaxşı istiqamətdə, çox sürətlə inkişaf edir. Ancaq problemlər də həll olunmalıdır. Bizim vəzifəmiz bundan ibarətdir. Xalq bizdən bunu istəyir. Biz də bunu təmin etməliyik və edirik"[3].

Bu baxımdan mövzunun aktuallığı aşağıdakı müddəalarla bağlıdır:

- Azərbaycanda iqtisadi sahədə keçid dövrü başa çatsa da, lakin bu sahədə problemlərin mövcudluğunu, cəmiyyət həyatının digər sahələrində keçid prosesinin davam etdiyini, eləcə də yeni yaranan müstəqil dövlətlərin keçid dövrünü yaşamasını nəzərə alaraq bu dövrün ümumi qanunauyğunluqları və çətinliklərini elmi cəhətdən araşdırmaq;
- cəmiyyətin real vəziyyəti haqqında məlumat əldə etmək;
- milli gerçəkliyin saxtalaşdırılması cəhdlərinin qarşısını almaq;
- yeni iqtisadi şəraitə uyğun səmərəli fəaliyyət mexanizmini

[3] Mehdiyev R. İlham Əliyev: iqtibaslar və təhlil. Bakı: Azərbaycan, 2006, s.268

müəyyənləşdirmək;

- bu problemlə bağlı gələcək elmi axtarışları istiqamətləndirmək.

**Problemin işlənmə dərəcəsi**. Uzun illər ziddiyyətlər və onların həlli yollarının mexanizmi müəyyənləşdirilməmiş, obyektiv ziddiyyətlər subyektiv çətinliklərlə eyniləşdirilmiş, sosializmin təbiətindən doğan ziddiyyətlər onun prinsiplərinin kobudcasına pozulması nəticəsində meydana gələn ziddiyyətlərlə bir sıraya qoyulmuşdur. Ona görə də bu problemin həllini vaxtı çatmış iqtisadi, sosial-siyasi, demoqrafik, mənəvi məsələlərin həlli ilə deyil, hüquqi yolla, inzibati-bürokratik fəaliyyətlə, formal «tərbiyəvi» tədbirlərlə əlaqələndirmişlər. Nəticədə sosializmin hərəkətverici qüvvələri və ziddiyyətləri dialektikasının tədqiqinə diqqət zəifləmiş, bu cəmiyyətin imkanları aşkara çıxarılmamış və onlardan istifadə edilməmişdir.

Yalnız 80-ci illərdən etibarən ziddiyyətlərin tədqiqinə maraq artmış, bu problemlə bağlı bir sıra dissertasiya, monoqrafiya, kitabça və məqalələr yazılmışdır[4].

---

[4] Бжезинский З. Великое преобразование // Демократия 90-х, Глобальные проблемы переходного периода. 1997, №6, с. 23; Бжезинский З. Большой провал: Рождение и смерть коммунизма в двадцатом веке. / Transl. by Larissa Gershtein. — New York : Liberty, 1989; Будилкин С.С. Специфика противоречий и формы их разрешения при социализме: Дис. … канд. экон. наук. ЛГУ, 1985.; Бутенко А.П. Еще раз о противоречиях социализма // Вопросы философии, 1984, №2; Бутенко А.П. О Сталине и проблеме антагонистических противоречиях при социализме // Вопросы философии, 1988, №2; Глухова А.В. Политические конфликты. Москва: УРСС, 2000, 280 с; Дашдамиров А. Идеологические противоречия этнической политики на Кавказе // Центральная Азия и Кавказ, № 5, 2001, с. 59-68; Дурин В.П. Противоречие и конфликт: Методологические основы конфликтологии: Автореф. дисс. … док.полит.наук. СП., 1994, 32 с.; Жовтун Д.Т. Противоречия и социальные конфликты в условиях социализма // Научный коммунизм, 1989, № 7, с. 14-22; Зеркин Д.П. Реалистическое понимание противоречий социализма- ядро нового мышления // Научный коммунизм, 1989, № 5, с. 16; Козинг А. К исследованию диалектики противоречий социализма // Проблемы мира и социализма, 1985, № 4, с. 58-64; Кудрявцев В.Н. Социальные деформации: причины, механизмы и пути преодоления. М.: Инс.гос. и права РАН, 1992, 133 с.; Пилипенко Н.В. Противоречия реального социализма и пути их разрешения // Научный коммунизм, 1985, № 5; Попов М.В. Планомерное разрешение противоречий развития социализма как первый фазы коммунизма. Л.: ЛГУ, 1986, 156 с.; Семенов В.С. К теоретическому углублению и конкретизации анализа проблемы противоречий в условиях развитого социализма // Вопросы философии, 1984, № 2, с. 130-140; Pruitt D., Rubin J. Social conflict: escalation, stalement, settlement. New York: McGraw-Hill, Inc, 1984, pp. 27-46; What is democracy? United states information Agency. UCA, 1991 və s.

Lakin bu vaxta qədər sosial ziddiyyətlər və münaqişələr, ziddiyyətlər və neqativ hallar arasında münasibət kifayət qədər araşdırılmamış, bazar münasibətlərinə keçid dövrünün ziddiyyətləri kompleks tədqiq edilməmişdir.

Tədqiqat işində xarici ölkələrin iqtisadçı, filosof və sosioloqlarının, o cümlədən Azərbaycan alimlərinin dissertasiya, monoqrafiya, kitabça və məqalələrindən istifadə edilmiş, müxtəlif dövlətlərin bu sahədə təcrübəsini əks etdirən əsərlərin öyrənilməsinə xüsusi diqqət yetirilmişdir.

F.M.Borodkin, A.R.Zaytsev, İ.Y.Vorojeykin, V.N.Şalenko və başqaları iqtisadi ziddiyyətlərlə bağlı məsələləri, A.A.Qastyev, A.V.Qluxova, M.M.Lebedeva, N.V.Şerbakov və b. daxili, hüquqi ziddiyyətlərlə bağlı konseptual-nəzəri problemləri, M.N.Quboqlo, L.M.Drobijevoy, V.N.İvanov, V.A.Tişkov və başqaları milli və qruplararası ziddiyyətləri tədqiq etmişlər.

Mövzu ilə bağlı ədəbiyyatın təhlili göstərir ki, bu ədəbiyyatı iki qrupa ayırmaq olar:

1. Ziddiyyətlərlə bağlı ümumi nəzəri ədəbiyyat
2. Bazar iqtisadiyyatı dövrünün ziddiyyətlərindən bəhs edən əsərlər

Azərbaycan alimlərindən A.Mustafayev, H.Dayızadə, Q.Əliyev, Ü.Şəfiyev, A.Şirinov, E.Şıxkərimov, E.Mirbəşiroğlu, N.Səfərova və başqaları münaqişələrdən bəhs edərkən onların ziddiyyətlərlə əlaqəsinə diqqət yetirmişlər[5] Ə.Daşdəmirov "Qafqazda etnik siyasətin ideoloji ziddiyyətləri" adlı əsərində (2001) regional münaqişələrin yaranmasını milli münasibətlərdəki ziddiyyətlərlə əlaqələndirmişdir[6].

---

[5] Mustafayev A. Fəlsəfədə ziddiyyətlər və münaqişələr problemi. Bakı: Nafta-Press, 2000, 57 s.; Dayızadə H. Müstəqilliyimiz və sosial münaqişələr // Elturan, 1994, №1, s. 8-12; Əliyev Q., Dayızadə H.Konfliktologiyaya giriş. Bakı: Təbib, 1998, 121 s.; Şirinov A. Sosial fəlsəfə və sosial ger?əklik. Bakı: Qanun, 2008, 340 s.; Şəfiyev Ü. Konfliktologiya. Siyasi-sosioloji təhlil. Bakı: Adiloğlu, 2002, 182 s.; Mirbəşiroğlu E. Siyasi münaqişələr: mahiyyəti, quruluşu, həlli. Bakı: Elm, 2009, 524 s.; Səfərova N.X. Keçid mərhələsində Azərbaycan cəmiyyətində sosial münaqişələrin yaranma səbəbləri və xüsusiyyətləri, onların ictimai həyata təsiri // Tolerantlıq paradiqması. AMEA, Bakı, 2002, s. 126-129 və s.

[6] Дашдамиров А. Идеологические противоречия этнической политики на Кавказе // Центральная Азия и Кавказ, № 5, 2001, с. 59-68

H.Dayızadə “Müstəqilliyimiz və sosial münaqişələr” adlı məqaləsində (1994) və Q.Əliyevlə birgə yazdığı “Konfliktologiyaya giriş” adlı kitabda (1998) sosial-siyasi münaqişələrə diqqət yetirmiş, sosial yönümlü bazar iqtisadiyyatını cəmiyyətin başlıca inkişaf istiqaməti hesab etmiş və münaqişələrin keçid dövrünün dialektik proseslərindən yarandığını göstərmişdir (59,69).

E.Şıxkərimov “Azərbaycanın müasir siyasi inkişafında sosial münaqişə” adlı namizədlik dissertasiyasında münaqişələrin ziddiyyətlərlə əlaqəsini nəzərdən keçirmişdir.

Ü.Şəfiyev “Konfliktologiya. Siyasi və sosioloji təhlil” adlı monoqrafiyasında (2002) münaqişələrdən ziddiyyətlərin bir halı və təzahür forması kimi bəhs etmişdir.

N.Səfərova “Cəmiyyətdə sosial münaqişə və ona sosial nəzarət” adlı namizədlik dissertasiyasında (2004) münaqişəni sosial ziddiyyətin forması kimi tədqiq etmişdir.

E.Mirbəşiroğlu “Siyasi münaqişələr: mahiyyəti, quruluşu, həlli” adlı monoqrafiyasında (2009) siyasi münaqişəni sosial hadisə kimi kompleks tədqiq etmiş, onun ziddiyyətlə əlaqəsini araşdırmışdır.

Beləliklə, son illər münaqişələrdən bəhs edən tədqiqatçılar problemin əsasən nəzəri aspektinə diqqəti artırmışlar. Odur ki, bazar iqtisadiyyatı şəraitində təzahür edən ziddiyyətlərdən bəhs edən əsərlər olduqca azdır. Həm də belə əsərlərdə keçid dövründə yaranmış ziddiyyətlərə kompleks yanaşılmamış, cəmiyyətin həyat fəaliyyətinin konkret sahəsinə aid olan ziddiyyətlərin tədqiqinə üstünlük verilmişdir.

Ümumiyyətlə, bazar iqtisadiyyatına keçid dövründə ziddiyyətlərin tədqiq edilməsinə maraq müəyyən amillərlə bağlıdır:

- ziddiyyətlərin artma miqyasını məhdudlaşdırmaq, onları doğuran səbəbləri müəyyənləşdirmək tələbatı;
- ziddiyyətlərin həlli yollarını tapmaq;
- ziddiyyətlərin idarə olunması və tənzimlənməsi prosesini nəzəri cəhətdən əsaslandırmaq;
- ziddiyyətlərin sosial nəticələrini müəyyənləşdirmək və cəmiyyətin inkişaf dinamikasını, siyasi sabitliyi pozan neqativ hallara qarşı mübarizəni gücləndirmək.

2000-ci ildən etibarən Azərbaycanda keçid dövrünün siyasi proseslərinin öyrənilməsinə maraq artmışdır. Bu həm yeni siyasi sistemə - demokratik cəmiyyətə keçid prosesinin elmi cəhətdən öyrənilməsi, həm də siyasi proseslərin inkişaf meyllərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətlidir.

A.Yusifova "Keçid dövründə siyasi hakimiyyətin demokratikləşdirilməsi problemləri" mövzusunda namizədlik dissertasiyasında (2000) Azərbaycanda gedən demokratikləşmə prosesinin mahiyyətini açıqlamış və yaranmış problemlərə diqqət yetirmişdir[7].

E.Cəfərovanın "Demokratiyaya keçid dövründə liderlik: sosial-siyasi təhlil" adlı namizədlik dissertasiyası (2003) keçid proseslərinin tənzimlənməsində liderin rolunun tədqiqinə həsr olunmuşdur[8].

R.Mehdiyev "Azərbaycan: qloballaşma dövrünün tələbləri" adlı əsərində (2005) transformasiya şəraitində Azərbaycan cəmiyyətinin qarşılaşdığı sosial-iqtisadi və siyasi problemləri nəzərdən keçirmiş, inkişafın mümkün yolunu müəyyənləşdirmişdir[9].

R.Mehdiyevin "XX əsrdə milli dövlətçilik" (2003), "Demokratiya yolunda" (2008), "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti" (2008) adlı əsərlərində demokratik cəmiyyət quruculuğunda qarşıya çıxan problemlər araşdırılmışdır [10] . İ. Məmmədzadə Azərbaycanda siyasi prosesi fəlsəfi baxımdan tədqiq etmişdir.[11]

Ə.Tağıyev "Müasir keçid dövrünün sosial-siyasi problemləri" adlı məqaləsində keçid prosesində Azərbaycan cəmiyyətinin üzləşdiyi problemləri nəzərdən keçirmiş və onların sosial nəticələrinə diqqət yetirmişdir[12].

Q.Əliyev "Çağdaş demokratik proseslərin bəzi fəlsəfi problemləri" adlı monoqrafiyasında (1997) bazar iqtisadiyyatına keçidi demokratikləşmə prosesinin tərkib hissəsi kimi təhlil etmiş və onun xüsusiyyətlərini nəzərdən keçirmişdir[13].

---

[7] Yusifova A. Kerid dövründə siyasi hakimiyyətin demokratikləşməsi problemləri: Siyası elm. nam. ... dis. Bakı, 2000

[8] Cəfərova E. Demokratiyaya keçid dövründə liderlik: soaial-siyasi təhlil: Siyasi elm.nam. ... dis. Bakı, 2003, 176 s

[9] Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı: YNE evi, 2005, 463 s.

[10] Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı: YNE, 2003, 246 s.; Mehdiyev R. Demokratiya yolunda. Bakı: Şərq-Qərb, 2008, 791 s; Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti. Bakı: Şərq-Qərb, 2008, 216 s.

[11] Мамедзаде И.Р. Гражданское общество и национальная идеология: философия политического процесса Азербайджана. Баку: Элм, 1995

[12] Tağıyev Ə. Müasir keçid dövrünün sosial-siyasi problemləri // Tolerantlıq paradiqması. Bakı, 2002, s. 30-43

[13] Əliyev Q.C. Çağdaş demokratik proseslərin bəzi fəlsəfi problemləri. Bakı: Təbib, 1997, 127 s.

R.Həsənov "Transformasiya şəraitində vətəndaş cəmiyyətinin formalaşması" adlı monoqrafiyasında (2003) keçid dövründə vətəndaş cəmiyyətinin yaranması və inkişaf etməsi proseslərini tədqiq edərək Azərbaycanda bu prosesin özünəməxsus cəhətlərini göstərmişdir[14].

V.Cəfərova "Azərbaycan müstəqillik dövründə: problemlər, perspektivlər" adlı monoqrafiyasında (2003) keçid dövrünün ümumi qanunauyğunluqlarını, sosial ziddiyyətlərin xarakteri və həlli yollarını tədqiq etmişdir[15].

Aydın Şirinov "Sosial fəlsəfə və sosial gerçəklik" adlı monoqrafiyasında (2008) keçid dövrünü universal qanunauyğunluq, müxtəlif ziddiyyətlərin yaranması və toqquşması dövrü kimi səciyyələndirmiş, onun mahiyyətini açıqlamağa səy göstərmişdir [16].

T.Dadaşov "Keçid dövründə Azərbaycan şəraitində siyasi bloklaşma və siyasi konsensus problemləri" adlı namizədlik dissertasiyasında (2008) keçid dövründə siyasi proseslərin spesifikliyini, siyasi konsensusun əldə edilməsi yollarını tədqiq etmişdir.

Q.Rüstəmbəyov "Postsosialist transformasiyası və qloballaşma prosesində milli iqtisadi maraqlar" adlı monoqrafiyasında (2003) milli iqtisadi maraqları postsosialist transformasiyası kontekstində nəzərdən keçirmiş və qlobal iqtisadi hadisələrin milli iqtisadi maraqların reallaşmasına təsirinə diqqət yetirmişdir[17].

C.Nuriyevin "Azərbaycan Respublikasında siyasi sabitlik ölkədə aparılan aqrar islahatlar kontekstində" adlı doktorluq dissertasiyası (2010) cəmiyyətdə siyasi sabitlik prosesinin uzunmüddətli olmasını şərtləndirən amillərin tədqiqinə həsr olunmuşdur. İşdə aqrar islahatların siyasi nəticələri və onların siyasi sabitlikdən qarşılıqlı asılılığı nəzərdən keçirilmişdir[18].

Əli Həsənov "Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti" adlı monoqrafiyasında (2011) Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin əsaslarını təhlil etmiş, dövlətin inkişaf

---

[14] Həsənov R. Transformasiya şəraitində vətəndaş cəmiyyətinin formalaşması. Bakı: "Kitab aləmi", 2003

[15] Cəfərova V. Azərbaycan müstəqillik dövründə: problemlər, perspektivlər. Bakı: Şirvannəşr 2003, 196 s.

[16] Şirinov A. Sosial fəlsəfə və sosial gerçəklik. Bakı: Qanun, 2008, s.83-149,

[17] Рустамбеков Г.Б. Национальные экономические интересы в процессе постсоциалистической трансформации и глобализации. Баку: Чашыоглы, 2009, 370 с.

[18] Nuriyev C. Azərbaycan Respublikasında siyasi sabitlik ölkədə aparılan aqrar islahatlar kontekstində. Siyasi elm. dok. dis.Bakı, 2010

perspektivlərinə, gələcəkdə milli inkişaf və təhlükəsizlik üçün yarana biləcək təhdidlərə diqqət yetirmişdir[19].

Beləliklə, mövzu ilə bağlı nəzərdən keçirdiyimiz ədəbiyyatda cəmiyyətdəki ziddiyyətlərdən maraqları uzlaşmayan sosial-siyasi qüvvələrin mübarizəsi kimi bəhs edilmişdir.

Hərçənd son illər Azərbaycanda bu mövzu ilə bağlı əsərlərdə problemin müxtəlif aspektlərinə müəyyən diqqət yetirilmişdir[20]. Bazar iqtisadiyyatına keçidi elan etdiyimiz vaxtdan ötən müddət ərzində iqtisadçı alimlərdən Z. Səmədzadə, T.Vəliyev, S.Hüseynov, Q.Əbdülsəlimzadə, R.Cəbiyev, A.Nadirov, R.Quliyev, Ə.Allahverdiyev, D.Vəliyev, S.Əliyev, R.Heydərov, İ.İsmayılov, K.Sarıyev, Q.Bayramov, Ş.Qafarov, N.Mustafayeva, S.Rəhimova, E.Kərimov, İ.Nəcəfov, N. Nəsrullayev və b. problemin iqtisadi təhlilinə xüsusi diqqət yetirmişlər[21].

---

[19] Həsənov Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı: Letterpress, 2011, 440 s.

[20] Abbasov Ə.F. Yeniləşən cəmiyyət. Müasir elmi paradiqma və idarəetmə (ümumnəzəri sinergetik təhlil). Bakı: Elm, 1998, 56 s.; Axundov A. Keçid dövründə cəmiyyətin siyasi sisteminin formalaşması: Siyasi elm.nam. ... dis. Bakı, 2000, 177 s.; Azərbaycanda çoxpartiyalı sistemin formalaşma prosesi: problemlər və perspektivlər. Bakı: «İnam» plüralizm mərkəzi, 1997; Azərbaycan milli dövlət quruculuğu yolunda: 1994-cü il oktyabr, 1995-ci il mart hadisələri və Azərbaycanda ictimai – siyasi vəziyyətə həsr olunmuş ümumxalq toplantısının materialları (5-6 aprel, 1996). Bakı: Azərnəşr, 1996, 365 s.; Cəfərova V. Azərbaycan müstəqillik dövründə: problemlər, perspektivlər (1991-2003). Bakı: Şirvannəşr, 2003, 292 s.; Dayızadə H. Müstəqilliyimiz və sosial münaqişələr // Elturan, 1994, №1, s. 8-12;Ekologiya. Fəlsəfə. Mədəniyyət. II –XXV buraxılış. Bakı: Elm, 1993-2001; Əsədov A. Demokratiya: lehinə və əleyhinə // Qanun, 1997, № 1; Mustafayev R.F. Azərbaycan dövlətçiliyi: özümüzü və dünyanı dərketmə yolunda. Bakı: Azərnəşr, 1995, 233 s; Yeni Müstəqil Azərbaycan uğrunda. Bakı, 1992 və s.

[21] Самедзаде З. А. Этапы большого пути. Экономика Азербайджана за полвека, её новые реалии и перспективы.Баку: Нурлар, 2004, 932 с.; Çin qlobal dünya iqtisadiyyatında. Bakı: Elm və Təhsil, 2009, 607 s.; Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. I buraxılış. Bakı: İqtisadi İslahatlar Mərkəzi, 2000, 226 s.; Azərbaycanda iqtisadi islahatların həyata ke?irilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. II buraxılış. Bakı: İqtisadi İslahatlar Mərkəzi. 2001, 234 s.; Azərbaycan iqtisadiyyatı yüksəliş yolunda (məqalələr toplusu). III (XII) buraxılış, Bakı: Elm, 2003; Allahverdiyev Ə.Q. Bazar iqtisadiyyatının təşəkkülü prosesində makroiqtisadi dinamik və struktur dəyişikliklərinin tənzimlənməsi problemləri. Bakı: Elm, 2001, 268 s.; Vəliyev D. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Adiloğlu, 2008, 428 s.; Bayramov Q.İ. Özəlləşdirmənin nəzəri – metodoloji problemləri və retrospektiv iqtisadi təhlil (Dünya təcrübəsi və Azərbaycanın timsalında). Bakı: Elm və həyat, 2001, 302 s.; Əliyev S., Babayev T., Lazımov X. Bazar münasibətləri şəraitində iqtisadi əlaqələr. Bakı: Azərnəşr, 1993, 94 s.; İsmayılov İ. Bazar iqtisadiyyatı ilə əlaqədar əmək münasibətləri məsələləri. Bakı: ADPU, 1995, 86 s;

S.Məmmədova "Siyasi sabitlik dövlət idarəçiliyinin səmərəliliyinin zəruri şərti kimi" adlı məqaləsində ilk dəfə olaraq iqtisadi amillərin siyasi sabitliyə təsirini araşdırmış, N.Məmmədov "Ölkənin iqtisadi təhlükəsizliyi" adlı monoqrafiyasında (2005) iqtisadi təhlükəsizlik problemlərini tədqiq etmişdir [22].

Dissertasiya işində keçid dövrü problemləri ilə bağlı təkcə Azərbaycan alimlərinin deyil, həm də əcnəbi alimlərin (Melvil A.Y., Pşevorskiy A., Hantinqton S., Şumpeter F. və b.) əsərlərindən istifadə olunmuşdur.

Qərb siyasi elmində keçid dövrü problemlərini tədqiq və təhlil edən xüsusi bir sahə - tranzitologiya elmi formalaşmışdır. Avropa və Amerikada yaranmış xüsusi elmi mərkəzlər dünyada gedən demokratik prosesləri bütövlükdə, eləcə də XX əsrin 90-cı illərindən etibarən keçmiş SSRİ məkanında müstəqil dövlətlərin yaranması ilə başlanan prosesləri öyrənməklə məşğul olur.

K.Popper "Açıq cəmiyyət və onun düşmənləri" adlı əsərində keçid dövrünü "açıq cəmiyyətə keçid" kimi səciyyələndirmiş, onun mahiyyətini izah etmiş və sovet dövlətini qapalı cəmiyyət kimi tənqid etmişdir .

A.Melvil "Demokratik tranzitlər. Nəzəri-metodoloji və tətbiqi aspektlər" adlı əsərində keçid prosesini dörd mərhələ üzrə tədqiq edir.[23]

F.Qonsales "Cəmiyyətdə razılıq və dəyişiklik üçün əsasların yaradılması" adlı məqaləsində keçid dövrünün səciyyəvi əlamətlərini ümumiləşdirmiş və onların tətbiqini təklif etmişdir.[24]

X.Lints "Parlamentarizmin məziyyətləri" adlı məqaləsində Latın Amerikası ölkələrinin təcrübəsinə əsaslanaraq keçid konsepsiyasını irəli

---

İsmayılova Q. Siyasi partiyalar: bələdiyyə və prezident se?kilərində iştirak yaxın gələcəyin əsas vəzifəsidir // Qanun, 1997, № 4; Quliyev R. İqtisadiyyatımız sahibkarlıq üzərində qurulacaq. "Həyat" qəz., 1992, 8 avqust; Mustafayev İ., Cəfərov R., Verdiyev Ə. və s. Azərbaycanda aqrar islahatların taleyi barədə mülahizələr. Bakı: Azərbaycan, 1994, 108 s.; Məmmədov N.M. Ölkənin iqtisadi təhlükəsizliyi. Bakı: BDU, 2005, 310 s.; Seyfullaev S.M., Abbasov İ.M. Bazar münasibətlərində iqtisadi təhlil. Bakı: Ergün, 1993, 175 s.; Tanrıverdi Əhməd Paşa. Regionların iqtisadi inkişafının dövlət tənzimlənməsinin başlıca problemləri. Bakı, 2005; Verdiyev Ə.Ç., İbrahimov İ.H. Bazar iqtisadiyyatı və qiymət. Bakı: Azərnəşr, 1992, 188 s.; Azərbaycan 2020: inkişafın yeni hədəfləri. Bakı: Azərnəşr, 2012, 848 s. və s.

[22] Məmmədov N.M. Ölkənin iqtisadi təhlükəsizliyi. Bakı: BDU, 2005, 310 s.

[23] Мельвиль А.Ю. Демократические транзиты. Теоретико-методологические и прикладные аспекты. М.: МОФН, 1999, 234 с.

[24] Гонсалес Ф. Создать в обществе основу для согласия и перемен // Свободная мысль. М., 1995, №15, с. 12-30

sürmüş, bunu digər regionlar üçün məqbul saymış və prezident idarəçiliyini səmərəsiz hesab etmişdir.[25]

G.Donnell tədqiqatlarında keçid dövründə rejimin sabitliyi məsələsinə diqqət yetirmiş və bunun üçün prezident hakimiyyətinin əhəmiyyətini vurğulamışdır.[26]

Postsovet məkanında keçid dövrü problemləri tarixçilər, filosof, politoloq, sosioloq və iqtisadçılar tərəfindən tədqiq olunmuşdur. Bu problemlərə aid çoxlu məqalələr, kitablar yazılmış, namizədlik və doktorluq dissertasiyaları müdafiə edilmiş, elmi-nəzəri konfranslar keçirilmişdir.

Rus alimi A.İ.Priqojin "Yenidənqurma: keçid prosesləri və mexanizmləri" adlı əsərində (1990) keçid dövründə islahatların həyata keçirilməsi istiqamətlərini təhlil etmişdir.

E.M.Babosov keçid dövründə baş verən prosesləri təhlil edərək postsovet dövlətlərinə xas olan ümumi neqativ hallardan, U.Q.Volkov bu prosesdə ayrı-ayrı təsisatların fəaliyyətindən, A.Pşevorski isə sosial-iqtisadi islahatların xarakterindən bəhs etmişdir.

A.Danilov "Keçid cəmiyyəti: sistemli transformasiyanın problemləri" adlı kitabında (1998) keçid dövründə sosial-siyasi proseslərin ümumi inkişaf meylini müəyyənləşdirmiş, empirik materiallar əsasında baş verən dəyişikliklərin müxtəlif aspektlərini təhlil etmişdir.

Göründüyü kimi, həm Qərbdə, həm də postsovet məkanında keçid dövrünə həsr olunmuş tədqiqatlarda cəmiyyətdə baş verən dəyişikliklərin müxtəlif aspektləri öyrənilmişdir.

**Tədqiqatin obyekti və predmeti**. Tədqiqatin obyekti bazar iqtisadiyyatına keçid dövrüdür. Keçid dövrü problemlərinin araşdırılması fəlsəfi məzmun kəsb edir və bu istiqamətdə davam edən mübahisələr sosial fəlsəfənin aktual probleminə çevrilmişdir. Tədqiqatın predmetini isə keçid dövrünün ziddiyyətləri, onların təzahür sahələri, həlli yolları və sosial nəticələri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Keçid dövrünün fəlsəfi təhlili bir-birilə bağlı olan iki mühüm istiqamətin müəyyənləşdirilməsini tələb edir:

1. Keçid dövründə yaranan iqtisadi, sosial, siyasi, mənəvi və

---

[25] Линц Х.Дж. Достоинство парламентаризма. Электронная публикация // «Русский журнал» М., 1997, №16, с. 23-31

[26] Доннелл Г.О. Делегативная демократия. Электронная публикация // «Русский журнл», М., 1997, №2, с. 24-32

ideoloji problemləri araşdırmaq, nəticələri ümumiləşdirmək və əlaqələndirmək.

2. Mövzu ilə bağlı sosial fəlsəfənin tədqiqat sahəsinə aid olan problemləri müəyyənləşdirmək.

Dissertasiya işinin qarşısında duran əsas məqsəd bazar iqtisadiyyatına keçid dövründə cəmiyyətin həyat fəaliyyətinin müxtəlif sahələrində mövcud olan ziddiyyətləri, onların təzahür formalarını müəyyənləşdirmək, bu ziddiyyətlərin həlli yollarını tapmaqdır.

Cəmiyyət həyatı həmişə antinomiya, dilemmalar və ziddiyyətlər ilə müşayiət olunur. Elmi tədqiqatın vəzifəsi belə halları araşdırmaq, həm də onların həlli yollarını tapmaqdır.

Dissertasiya işi qarşısında aşağıdakı vəzifələr durur:

- qazanılan biliyə, dövlətin bu sahədə yeritdiyi siyasətə əsaslanaraq bazar iqtisadiyyatına keçid dövründə ziddiyyətləri şərtləndirən amilləri aşkara çıxarmaq və bu prosesi elmi cəhətdən əsaslandırmaq;
- bu sahədə yaranmaqda olan nəzəri fikri elmi təhlil süzgəcindən keçirib onu yeni müddəalarla zənginləşdirmək;
- yeni ictimai-iqtisadi və siyasi sistemə keçid prosesinin qanunauyğunluqları və çətinliklərini elmi cəhətdən araşdırmaq;
- bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan cəmiyyətinin durumunu təhlil etmək;
- respublikanın müxtəlif müəssisələrində, eləcə də tələbələr arasında aparılmış sosioloji tədqiqatların nəticələrinə əsaslanaraq cəmiyyət həyatının müxtəlif sahələrində baş vermiş dəyişikliklərin istiqaməti və xüsusiyyətlərini öyrənmək;
- cəmiyyətin həyat fəaliyyətinin müxtəlif sahələrini əhatə edən ziddiyyətləri nəzərdən keçirmək və onları qruplaşdırmaq;
- bazar iqtisadiyyatına keçid dövrünün ziddiyyətlərini kompleks tədqiq etmək;
- ziddiyyətləri, onların həlli yolları və sosial nəticələrini müəyyənləşdirmək;
- ziddiyyətlərin aradan qaldırılmasını həyat tərzini təkmilləşdirməyin mühüm şərti kimi tədqiq etmək;
- demokratik cəmiyyət quruculuğu prosesində beynəlxalq təşkilatların rolunu müəyyənləşdirmək;
- cəmiyyəti təkmilləşdirmək yollarını açıqlamaq;
- bazar iqtisadiyyatına keçid dövrünün Azərbaycan üçün səciyyəvi cəhətlərini aşkara çıxarmaq;

- beynəlxalq təcrübəni təhlil edib ümumiləşdirərək keçid dövrünün məqbul modelini müəyyənləşdirmək.

**Dissertasiyanın nəzəri-metodoloji əsası.** Dissertasiyanın metodoloji əsasını və ideya-nəzəri mənbəyini problemə aid elmi-konseptual yanaşmalar, elmi idrakın metod və prinsipləri təşkil edir. Tədqiqat işi elmi idrakda tarixiliklə məntiqiliyin vəhdətinə, problemlə bağlı geniş elmi-nəzəri ədəbiyyata, yeni tarixi şəraitdən doğan nəticələrə və müddəalara əsaslanır.

Dissertasiyada dövlət sənədlərindən, prezidentin fərman və sərəncamlarından, hökumətin müvafiq qərarlarından, qəbul olunan qanunlardan, mövzu ilə bağlı elmi əsərlərdən, dövri mətbuat və internet materiallarından istifadə edilmişdir.

Tədqiqat işində əsas nəzəri-metodoloji baza kimi Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin çıxış və nitqlərində irəli sürülmüş fikirlərdən məqsədyönlü istifadə edilmişdir.

Problemin kompleks tədqiqi üçün siyasi, elmi-nəzəri metodlardan (analiz və sintez, induksiya və deduksiya, məntiqilik, ümumiləşdirmə, tarixi yanaşma, müqayisəli və sistemli təhlil və s.) geniş istifadə edilmişdir.

**Dissertasiya işinin elmi yeniliyi**. Dissertasiya işində bazar iqtisadiyyatına keçid dövrünün ziddiyyətləri ilk dəfə kompleks tədqiq olunmuş və Azərbaycan Respublikasının nümunəsində "İkiqat keçid" in mümkünlüyü nəzəri və praktik cəhətdən əsaslandırılmışdır. Tədqiqat işinin elmi yeniliyi qoyulan problemlərin və onların həllinə yanaşmanın xarakteri ilə sıx əlaqədardır:

- bu vaxta qədərki fəlsəfi ədəbiyyatda və təbliğ praktikasında mövcud olan ehkamlardan uzaqlaşıb problemi yeni aspektdə şərh etmək və cəmiyyətin real vəziyyətini müəyyənləşdirmək;
- bazar iqtisadiyatına keçid dövrünün zəruriliyini sosial-fəlsəfi istiqamətdə əsaslandırmaq və yeni iqtisadi şəraitə uyğun səmərəli fəaliyyət mexanizminin nəzəri əsaslarını təkmilləşdirmək;
- keçid dövrünün Azərbaycan üçün səciyyəvi cəhətlərinə və səmərəli modelinə diqqət yetirmək;
- bazar iqtisadiyyatına əsaslanan, demokratik cəmiyyət qurmuş dövlətlərin təcrübəsini öyrənmək və ondan faydalanmaq;
- keçid dövrü ziddiyyətlərini və onların həlli yollarını müəyyənləşdirmək;
- ziddiyyətlərin aradan qaldırılmasının həyat tərzinin

təkmilləşdirilməsi üçün əhəmiyyətini açıqlamaq;

- cəmiyyətdə sabitliyin qorunması və onun davamlı olması üçün elmi tövsiyələr irəli sürmək.

**Dissertasiya işinin nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqatın elmi-praktiki əhəmiyyəti onun elmi yeniliyi ilə əlaqədardır. Problemin konkret sosioloji tədqiqat materialları əsasında nəzəri cəhətdən öyrənilməsi bir sıra elmi nəticələr əldə etməyə və ümumiləşdirmələr aparmağa imkan vermişdir.

Dissertasiya işinin material və müddəalarından, irəli sürülən tövsiyələrdən fəlsəfə, sosial fəlsəfə, iqtisadiyyat, politologiya, siyasi sosiologiya, sosiologiya kursları üzrə mühazirə mətnlərinin hazırlanmasında, elmi tədqiqat işlərində, diplomatik görüşlərdə, konfrans və seminarlarda, kütləvi informasiya vasitələri üçün materiallar hazırlayarkən və keçid dövrü problemlərinin həlli prosesində istifadə oluna bilər.

Dissertasiya işinin əsas müddəaları öz əksini müəllifin çap etdirdiyi monoqrafiya və məqalələrdə, eləcə də elmi-nəzəri konfransların materiallarında tapmışdır. Bu müddəalardan radioda «Bazar iqtisadiyyatı: mülahizələr, təkliflər» rubrikasından olan silsilə verilişlərdə, ali məktəblərdə fəlsəfə, sosiologiya və politologiya kursu üzrə oxunan mühazirələrdə, seminar-müşavirələrdə istifadə olunmuşdur.

**Dissertasiyanın aprobasiyası**. Dissertasiya işi Bakı Dövlət Universitetinin fəlsəfə kafedrasında yerinə yetirilmişdir. İşin əsas məzmunu üç monoqrafiya və dörd kitabçada, eləcə də respublikada və xaricdə dərc olunmuş məqalələrdə, beynəlxalq elmi konfranslardakı məruzələrdə öz əksini tapmışdır.

Dissertasiyanın müəyyən müddəaları Binəqədi nasos stansiyasında 30; Oğuz-Qəbələ-Bakı su kəməri idarəsində 50; Bakı Dövlət Universitetində 500, Azərbaycan Memarlıq və İnşaat Universitetində 500 nəfər arasında 2012-ci ildə apardığımız sosioloji tədqiqatın materiallarına əsaslanır.

Tədqiqat işində «Karvan» müstəqil sosioloji araşdırma mərkəzinin keçirdiyi sorğunun nəticələrindən istifadə edilmişdir. Sorğuda Bakı əhalisinin müxtəlif təbəqələrini əhatə edən 364 nəfər iştirak etmişdir.

Dissertasiya işində həm də Cenevrədəki Elmi Tədqiqat Tədris İnstitutunun (UNITAR) və «El-oba» sosioloji tədqiqatlar Mərkəzinin keçirdiyi sorğunun nəticələrindən istifadə edilmişdir.

**Dissertasiya işinin strukturu**. Mövzunun genişliyini və mürəkkəbliyini nəzərə alaraq dissertasiyada ən mühüm, həm də az tədqiq

olunmuş, mübahisələrə səbəb olan məsələlərə xüsusi diqqət yetirilmişdir.

Dissertasiya işi giriş, 3 fəsil (9 yarımfəsil), nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## İşin əsas məzmunu

**Giriş**də mövzunun aktuallığı əsaslandırılmış, problemim işlənmə dərəcəsi müəyyənləşdirilmiş, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti göstərilmiş, elmi aprobasiyası və strukturu haqqında məlumat verilmişdir.

**"Bazar iqtisadiyyatına keçid dövrünün xüsusiyyətləri"** adlı birinici fəsil üç yarımfəsildən ibarətdir. **"Keçid dövrünün nəzəri-konseptual əsasları"** adlı ilk yarımfəsildə tarixi inkişafın qanunauyğun mərhələsi olan keçid dövrü yeni siyasi, sosial, iqtisadi, mənəvi münasibətlərin meydana gəlməsi və formalaşması prosesi kimi nəzərdən keçirilmişdir. Keçid dövrünün mahiyyəti keçid prosesləri kontekstində nəzəri cəhətdən öyrənilmiş, elmi ədəbiyyatda bu problemə marağın artmasının səbəbləri, tədqiqatçıların "birqat", "ikiqat", "üçqat" keçidə münasibəti və mövqeyi açıqlanmışdır.

Dövlətlər qlobal iqtisadi məkanda iştirak səviyyəsinə və ona təsir imkanlarına görə "böyük" və "kiçik" dövlətlərə bölünürlər:

- bazar iqtisadiyyatı sistemi tam gücü ilə fəaliyyət göstərən inkişaf etmiş "kiçik" dövlətlər (Belçika, Danimarka, Hollandiya, İsveçrə, Norveç, Finlandiya və s.);
- ənənəvi iqtisadi sistemin fəaliyyət göstərdiyi inkişaf etməkdə olan "kiçik" dövlətlər (kiçik Afrika dövlətləri);
- keçid iqtisadiyyatlı "kiçik" dövlətlər (Azərbaycan, Gürcüstan, Latviya, Litva, Estoniya və s.). Bu ölkələr iki qrupa ayrılır:
- milli dövlətçiliyin təkmilləşdirilməsi yolu ilə bazar iqtisadiyyatı sisteminə keçən "kiçik" ölkələr (Polşa, Macarıstan və s.);
- müstəqilliyin əldə edilməsi və ya bərpa edilməsi ilə yanaşı bazar iqtisadiyyatı sisteminə keçən ölkələr (Azərbaycan, Özbəkistan, Qazaxıstan, Türkmənistan və s.). Bu qrupa daxil olan ölkələr sovet rejiminin doğurduğu problemləri həll etmək məcburiyyətində olmuşlar.

Qərb ölkələrində "ikiqat keçid"dən bəhs edərkən tədqiqatçılar üç istiqamətə diqqət yetirirlər:

- totalitar cəmiyyətdə iqtisadi dəyişikliklər getməli, bazar iqtisadiyyatı yaranmalı, sonra demokratik siyasi rejimə keçilməlidir;
- demokratiyaya keçilməli, sonra iqtisadi islahatlar yolu ilə bazar

iqtisadiyyatı qərarlaşmalıdır;

- siyasi və iqtisadi islahatlar paralel, tədricən həyata keçirilməlidir.

Bu yarımfəsildə eyni vaxtda diktaturadan demokratiyaya, amirlik iqtisadiyyatından azad bazara, imperiyadan milli dövlətçiliyə keçidin doğurduğu problemlərə, belə keçidin çətin və münaqişəli proses olmasına diqqət yetirilmişdir. Keçid dövrünün sürətlə keçməsi və ya ləngiməsinin onun əsas problemlərindən asılılığı göstərilmişdir.

Keçid dövrünün xarakteri həyata keçirilən iqitsadi islahatların miqyası, istiqamətləri və tədbirlərin reallaşdırılmasının sürəti ilə müəyyən olunur.

Keçid dövrü cəmiyyətin iqtisadi sistemində əsaslı islahatların aparılması ilə xarakterizə olunur. Yeni sistemə keçid hər şeydən əvvəl mülkiyyət formalarının dəyişdirilməsinin, özəlləşdirmə və dövlətsizləşdirmə prosesinin həyata keçirilməsi əsasında sahibkarlığın inkişafı üçün şəraitin yaradılmasını tələb edir. Bir iqtisadi sistemdən digərinə keçid dövrünü yaşayan cəmiyyətlərdə həm əvvəlki ictimai quruluşa aid olan sosial təsisatlar, həm də yeni yaranmaqda olan sosial institutlar yanaşı fəaliyyət göstərir. Bu prosesdə sosial ziddiyyətlər daha da dərinləşir.

Burada dünya təcrübəsi əsasında keçid dövründə iqitsadi islahatların həyata keçirilməsinin modelləri (bazar təsisatlarının təcricən formalaşmasını nəzərdə tutan təkamül yolu və “şok terapeyası” modeli), bu dövrdə dövlətin səlahiyyət hüdudları və idarəetmə forması ilə bağlı baxışlar nəzərdən keçirilmiş, keçid strategiyasının hazırlanması istiqamətlərinə diqqət yetirilmişdir. Keçid dövründən tarixi, ümumi qanunauyğunluq kimi bəhs edilmiş, bu dövrün kapitalizm-sosializm dixonomiyası hüdudundan çıxa bilməməsinin səbəbləri açıqlanmışdır.

**“Keçid dövrünün təşəkkülü və inkişaf mərhələləri”** adlı ikinci yarimfəsildə bazar iqtisadiyyatının formalaşması və milli iqtisadi sistemin qurulması nəticəsində yaranan dəyişikliklərdən, iqtisadiyyatın bazar mexanizminin fəaliyyətinə təkan verən təşkilati-iqtisadi münasibətlərdən bəhs edilmiş, iqtisadiyyatın transformasiyasının istiqamətlərinə (liberallaşdırma, sabitləşdirmə, özəlləşdirmə, iqtisadi təsisatların formalaşdırılması, iqitsadiyyatın yenidən qurulması) diqqət yetirilmişdir.

Keçid dövrünün əsas məqsədi iqtisadi həyatın təbii imkanlara, intellektual potensiala əsaslanması üçün şərait yaratmaqdır. Bu dövrdə qarşıda duran ən ümdə vəzifələr aşağıdakılardır:

- keçid dövrü konsepsiyasını hazırlamaq və islahatlar həyata keçirmək;

- dövrün tələbinə uyğun qanunlar qəbul etmək və onları reallaşdırmaq;
- mülkiyyəti dövlətsizləşdirmək və özəlləşdirmək, sahibkarlığı inkişaf etdirmək;
- maliyyə-kredit, gömrük, vergi sistemini nizamlamaq, büdcəni formalaşdırmaq;
- iqtisadi əlaqələri genişləndirmək, iqtisadiyyatı xarici asılılıqdan azad etmək və xarici investisiyalardan məqsədyönlü istifadə etmək;
- əhalinin sosial müdafiəsini təmin etmək, işsizlik problemini həll etmək və yoxsulluğu azaltmaq.

XX əsrin 90-cı illərindən etibarən 27 postsosialist dövləti planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçdi. Həmin vaxtdan etibarən "keçid iqtisadiyyatı" anlayışı və "keçid iqtisadiyyatı" nəzəriyyəsi elmi ədəbiyyata daxil olmuşdur.

Şərqi Avropa dövlətlərində (Çexiya, Slovakiya, Macarıstan, Polşa və s.) keçid dövrü postsovet dövlətlərinin bu istiqamətdə keçdiyi tarixi inkişaf yolundan fərqlənir:

- SSRİ ilə müqayisədə Şərqi Avropa ölkələri sosializm cəmiyyətində az yaşadığına və bu ölkələrdə bazar iqtisadi sistemi tam dağılmadığına görə inzibati-amirlik sistemindən bazar iqtisadi sisteminə keçid daha asan olmuşdur;

- bu dövlətlərdə sosializm sistemindən əvvəl bazar iqtisadi sistemi tam formalaşmış, onlar inkişaf etmiş ölkələr qrupuna daxil olmuşlar;

- Şərqi Avropa ölkələrində mövcud olan milli şüur və intellektual səviyyə bazar iqtisadiyyatına keçidi sürətləndirmişdir.

Klassik bazar iqtisadiyyatı ölkələri ictimai inkişafın təkamül nəzəriyyəsinə əsaslandığına görə həmin ölkələrdə keçid dövrü olmamış, iqtisadi inkişaf pilləli xarakter daşımış və bazar iqtisadiyyatı üç mərhələli inkişaf yolu keçmişdir:

1. Bazar iqtisadiyyatının təşəkkülü və inkişafı. Bu mərhələdə bazar münasibətlərinin formalaşmasının maddi ilkin şərtləri yaranmışdır.

2. Bazar iqtisadiyyatının azad rəqabət dövrü.

3. Qarışıq iqtisadiyyatın - tənzimlənən, çoxmülkiyyətli iqtisadiyyatın formalaşması və inkişafı.

Tədqiqatçılar keçid dövrünün aşağıdakı iqtisadi qanunauyğunluqlarını müəyyənləşdirmişlər:

- qeyri-sabitlik. Keçid iqtisadiyyatı iqtisadi sistemin tam formalaşmamış vəziyyətidir. O əvvəlki iqtisadi sistemlə yeni iqtisadi münasibətləri əlaqələndirir;

- inkişafın çoxvariantlılığı. Bir iqtisadi sistemdən digərinə keçid

zamanı iqtisadi sistemin müxtəlif variantları yaranır;

- xüsusi keçid dövrünün meydana gəlməsi və fəaliyyəti. Bu formaya daha çox keçid dövrünün ilk illərində təsadüf edilir. Bu zaman məhsuldar qüvvələrin inkişafı ləng getsə də, o, keçid iqtisadi münasibətlərinin formalaşması və inkişafına təkan verir;

- tarixilik. Keçid iqtisadiyyatı keçid xarakteri daşıdığına görə dialektikanın tələbi ilə onun bazar iqtisadiyyatının sivilizasiyalı mərhələsinə çatması labüddür.

Keçid iqtisadiyyatının üç meyarı əsasında keçid dövrünün başa çatmasının hansı səviyyədə olmasını müəyyən etmək olar:

- iqtisadiyyatın bütün sahələrində bazar münasibətləri ünsürlərinin formalaşması;
- bazar mexanizminin fəaliyyətinin səmərəliliyi;
- ümumi daxili məhsulun istehsalını ümumi böhrandan əvvəlki səviyyədə bərpa etmək və onu ötüb keçmək .

Dissertasiyada bazar münasibətləri şəraitində iqtisadiyyatın yeni təməl üzərində qurulmasını təmin edən vəzifələr müəyyənləşdirilmiş, iqtisadi və siyasi sistemdə, sosial strukturda baş verən dəyişikliklərin xarakteri və sürətinin struktur-iqtisadi, etno-mədəni, siyasi və digər amillərdən asılılığına diqqət yetirilmiş, yeni iqtisadi sistemə keçidin çətinliyi iqtisadi əlaqələrin pozulması, ilkin kapital yığımının zəif olması, müharibə, bürokratik maneələr və s. amillərlə izah olunmuş, keçid dövrünün məqsəd və vəzifələri müəyyənləşdirilmişdir.

Şərqi Avropa dövlətləri ilə postsovet dövlətlərinin müqayisəsi əsasında keçid dövrünün fərqli cəhətləri açıqlanmışdır.

Bu yarımfəsildə bazar iqtisadiyyatının üç mərhələli inkişaf yolundan (təşəkkül və inkişaf; azad rəqabət; qarışıq iqtisadiyyatın formalaşması və inkişafı) bəhs edilmiş, keçid dövrünün hansı səviyyədə başa çatmasını göstərən meyarlara diqqət yetirilmişdir. Yeni sistemə keçid mülkiyyət formalarının dəyişdirliməsi, özəlləşdirmə və dövlətsizləşdirmə prosesinin həyata keçirilməsi əsasında sahibkarlığın inkişafı üçün şərait yaradılmasını tələb edir. Bu prosesin sosial ziddiyyətlərin dərinləşməsi ilə müşayiət olunduğu əsaslandırılmışdır.

Bu yarımfəsildə bazar iqtisadiyyatının hüquqi bazasının yaradılması və təsərrüfat mexanizminin tənzimlənməsində mülki, hüquqi vasitələrin rolunun artırılmasından iqtisadi suverenliyin, siyasi müstəqilliyin, siyasi sabitliyin və maddi rifahın yüksəldilməsinin əsas şərti, dövlətin beynəlxalq və regional siyasi-iqtisadi sistemlərə daxil

olmasının təminatı kimi bəhs olunmuşdur. Eləcə də mövcud qanunların fəaliyyətsizliyi və səmərəsizliyinin səbəbləri açıqlanmış, sorğu əsasında respondentlərin ölkədəki mövcud duruma və proseslərə münasibəti müəyyənləşdirilmişdir. Burada bazar iqtisadiyyatına keçidin zəruruliyini şərtləndirən amillərə diqqət yetirilmiş, keçid dövrü üç mərhələ üzrə səciyyələndirilmiş və bu dövrdə cəmiyyətin transformasiyasının istiqamətlərindən bəhs edilmişdir.

**"Bazar iqtisadiyyatına keçidin əsas istiqamətləri"** adlı üçüncü yarımfəsildə düzgün struktur siyasətdən tənəzzül vəziyyətində olan iqtisadiyyatı dirçəltməyin yollarından biri kimi bəhs olunmuşdur. İslahatların aparılması üçün müəyyən iqtisadi rejimin yaradılması, bu prosesdə hökümət və onun orqanlarının əsas rol oynaması, vahid iqtisadi xətt üzrə hərəkət etməsinin əhəmiyyəti açıqlanmışdır. İslahatların nəticələrinin yeni iqtisadi təfəkkürün formalaşmasından, bazar iqtisadiyyatına keçidin zəruriliyinin dərk edilməsindən asılı olduğu göstərilimişdir. İqtisadiyyatı formalaşdırmaq, onu tənzimləmək və iqtisadi təhülküəsizliyi təmin etmək üçün islahatların keçirilməsinin zəruriliyi əsaslandırılmış, bu sahədəki problemlərə diqqət yetirilmiş, aqrar islahatların həyata keçirilməsi prosesində yaranan problemlərə önəm verilmiş, təklif və tövsiyələr irəli sürülmüşdür.

Qarışıq iqtisadiyyatın yaradılması və fəaliyyət göstərməsi aşağıdakı vəzifələrin yerinə yetirilməsini tələb edir:

- bütün qüvvə və ehtiyatları iqtisadi böhranın qarşısının alınmasına və sosial-iqtisadi vəziyyətin stabilləşməsinə yönəltmək;
- iqtisadiyyatın strukturunu makro və mikro istiqamətdə təkmilləşdirmək, onu elmi-texniki tərəqqinin nailiyyətlərinə uyğun qurmaq;
- bazar iqtisadiyyatı münasibətlərinə keçid konsepsiyasını yaratmaq;
- sahibkarlığı inkişaf etdirmək;
- əhalinin maddi rifahını yaxşılaşdırmaq.

Bu yarımfəsildə özəlləşdirmədən bazar iqtisadiyyatına keçidin ilk pilləsi, çoxcəhətli və mərhələli mürəkkəb sosial-iqtisadi proses kimi bəhs edilmiş, qarışıq mülkiyyət prinsiplərinə əsaslanan iqtisadiyyatın formalaşmasının bu prosesin həyata keçirilməsi ilə əlaqəsi açıqlanmış, özəlləşdirmənin tədricən, dövlət bölməsi ilə özəl sahələr araındakı optimal nisbət gözlənilməklə həyata keçirilməsinin, bu prosesdə insanların psixologiyasının, əhalinin həyat tərzinin, iqtisadiyyatda yaranmış vəziyyətin, daxili və xarici amillətin təsirinin nəzərə

alınmasının əhəmiyyəti vurğulanmışdır. Dissertasiyada özəlləşdirmədən iqtisadiyyatda riskli kapital qoyuluşunun və mütərəqqi iqtisadi mexanizmin işə düşməsi prosesini sürətləndirən zəruri vasitə kimi bəhs olunur. Özəlləşdirmənin səmərəli həyata keçirilməsi bu sahədə hazırlanmış proqramlardan, təşkilati-hüquqi və iqtisadi-normativ bazanın səviyyəsindən asılıdır. Bu prosesdə özəlləşdirmənin məqsədi, həyata keçirilməsi yolları, prosesə nəzarət mexanizmi və onun sosial-iqtisadi nəticələri əsas götürülməli, üç cəhətə (özəlləşdirilən obyektin mənsubiyyəti;prosesdə nəzərə alınması zəruri olan şərtlər; özəlləşdirmə mexanizmi) diqqət yetirilməli və əhalinin bütün təbəqələrinin özəlləşdirmədə iştirakı üçün bərabər şərait yaradılmalıdır.

Bu yarımfəsildə özəlləşdirmə sahəsində dünya dövlətlərinin (Şərqi Avropa, postsovet məkanı, Baltikyanı dövlətlər və s.) təcrübəsinə, özəlləşdirmənin müxtəlif formalarına xüsusi diqqət yetirilmiş, xarici sərmayəçilərin cəlb edilməsi, zəruri investisiya mühitinin yaradılmasında özəlləşdirmənin əhəmiyyəti açıqlanmışdır. Bu prosesə əhalinin münasibətini öyrənmək üçün rəy sorğusundan istifadə olunmuşdur. Burada sahibkarlığın inkişafının daxili istehlak bazarının formalaşmasında və sağlam rəqabət üçün geniş imkanlar açmasında, işsizlik kimi kəskin sosial-iqtisadi problemin həllində, büdcənin zənginləşməsində roluna diqqət yetirilmiş, keçid dövrü iqtisadiyyatını səciyyələndirən cəhətlər nəzərdən keçirilmiş, cəmiyyət həyatının müxtəlif sahələrində bu dövrün tələb və vəzifələri müəyyənləşdirlmişdir.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar iqtisadiyyatın dövlət tabeçiliyindən çıxarılması proqramı tədricən, mərhələlərlə həyata keçirilməlidir.Bazar iqtisadiyyatı şəraitində təsərrüfatçılıq devizi belə olmalıdır: «Planlaşdır – yerinə yetir-yoxla-təsir et!».

İnvestisiyanı ölkəyə cəlb etmək üçün aşağıdakı tədbirlər həyata keçirilməlidir:

- siyasi, iqtisadi və hüquqi sabitlik yaratmaq;
- iqtisadi infrastrukturu yaxşılaşdırmaq;
- investisiyanın müdafiəsini təmin etmək;
- danışıqları investisiya sahəsində səlahiyyətli bir qurumla aparmaq;
- münasib tərəfdaşları aşkar etmək.

Müstəqillik dövründə Azərbaycanın iqtisadi durumunu şərti olaraq iki əsas mərhələyə ayırmaq olar:

1. 1991-1995-ci illər (iqtisadi xaos və ya tənəzzül dövrü)
2. 1996-2012-ci illər (makroiqtisadi sabitlik, dinamik iqtisadi

inkişaf və keçidin başa çatması dövrü)

Azərbaycanda keçid dövrünün aşağıdakı tələb və vəzifələri müəyyənləşdirilmişdir:

- siyasi sahədə: ümumi dövlətçilikdən müstəqil dövlətçiliyə keçmək və onu gücləndirmək;
- iqtisadi sahədə: planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına, sosialist mülkiyyətinə, çoxukladlı xüsusi mülkiyyət formasına keçmək;
- sosial sahədə: milli burjuaziyanı beynəlxalq maliyyə və əmtəə kapitalı ilə ittifaqda hakim ictimai-siyasi qüvvəyə çevirmək, əhalinin təbəqələşməsi;
- hərbi sahədə: Azərbaycan ərazisini erməni işğalçılarından azad etmək, qaçqın və köçkünləri öz daimi yaşayış yerlərinə qaytarmaq;
- beynəlxalq münasibətlər sahəsində: Azərbaycana digər dövlətlərin siyasi, iqtisadi, maliyyə, hərbi və s. sahələrdə təzyiqinə yol verməmək.

**“Keçid dövrünün ziddiyyətləri və onların sosial nəticələri”** adlanan ikinci fəsil üç yarımfəsildən ibarətdir. **“Ziddiyyətlərin yaranma səbəbləri”** adlanan birinci yarımfəsildə ziddiyyətlərin hər bir hadisə və prosesin inkişafının mənbəyini təşkil etməsi, ziddiyyətlərsiz hərəkət və dəyişikliyin olmadığı göstərilir.

Ziddiyyətlərin düzgün izah edilməməsi cəmiyyətin müxtəlif inkişaf mərhələlərində onların rolunun təhrif edilməsinə imkan yaradır. Bəzən münaqişə sosial ziddiyyətlərlə, hətta antaqonizmlə qarışdırılır, cəmiyyətdəki ziddiyyətlərdən maraqları uzlaşmayan sosial-siyasi qüvvələrin mübarizəsi kimi bəhs edilir.

Münaqişə sosial ziddiyyətlərin inkişafında müəyyən pillə, onun həlli üsuludur. Hər bir münaqişənin əsasını ziddiyyətlər təşkil edir və münaqişə tərəflərinin qarşıdurması ziddiyyətlərdən başlayır. Ziddiyyətlərin münaqişəyə çevrilməsi üçün maraqların əksliyi və buna uyğun davranış tələb olunur.

Obyektiv ziddiyyətlərin meydana gəlməsi nəticəsində ilkin münaqişə vəziyyəti yaranır. Ziddiyyətlər bir-birinə qarşılıqlı sirayət edir və bir-birini tamamlayır. Ziddiyyətlərin iki nüfuz anı var: əksliklərin vəhdəti və onların mübarizəsi. Əksliklərin vəhdəti nisbi, onların mübarizəsi isə mütləq xarakter daşıyır. Ziddiyyət əksliklərin qarşılıqlı münasibəti olub, bir proses kimi öz inkişafında beş mərhələdən (fərq, mühüm fərq, əkslik, münaqişə və ziddiyyətin həll olunması) keçir.

Əksər tədqiqatçılara görə sosial münaqişə ziddiyyətlərin kəskin formasını ifadə edir. [27] O, müəyyən obyektiv ziddiyyət əsasında bir-birinə qarşı duran ictimai qüvvələrin sosial təsir vasitələrinin spesifik növüdir. Lakin münaqişə heç də həmişə ziddiyyətlərin təzahür forması olmur.

Sosial həyatda ziddiyyətlər cəmiyyət üzvlərinin, siniflərin, sosial qrupların tələbat, mənafe, meyl və məqsədlərini ifadə edir. Bu ziddiyyətlərin bir qrupu cəmiyyətin təbiətindən doğursa, digər qrupu onun prinsiplərinin pozulması nəticəsində yaranır. Odur ki, yeni ilə köhnə, mütərəqqi ilə mühafizəkar cəhətlər arasında vəhdət və mübarizə mövcud olur. Əksliklərin mübarizəsi daim davam edirsə, onların vəhdəti nisbi və keçici xarakter daşıyır.

Antaqonizm sosial əksliklərin qarşılıqlı təsirinin elə bir formasıdır ki, burada tərəflər bir-birindən təcrid olur. Aqonist ziddiyyətlərdə isə, əksinə, tərəflər arasında ümumi cəhətlər çoxalır, bir tərəfin inkişafı digərini şərtləndirir. Bu isə ümumi əsasın inkişafına səbəb olur, onun məzmununu zənginləşdirir.

Cəmiyyətin qərarlaşması və inkişafının dialektik təhlili onun sosial-iqtisadi inkişafının müxtəlif mərhələlərində real ziddiyyətləri aşkar etməyə imkan verir.

Ziddiyyətlərin vaxtında aşkar edilməsi və həll edilməsinin mühüm şərti vəhdətdir. Bu, vəhdət və ziddiyyətlərin qarşılıqlı təsirinin dialektikasını əks etdirir.

Hər bir ziddiyyət obyektiv inkişaf prosesində özünün həlli üçün şərait yaradır. Ziddiyyətlərin müsbət həlli obyektiv və subyektiv zəmindən asılı olur və cəmiyyətin birliyini möhkəmlədir, onun təkmilləşdirilməsi üçün imkan yaradır. Cəmiyyətin şüurlu və məqsədyönlü fəaliyyəti ziddiyyətlərin vaxtında, səmərəli həll olunması ilə bağlıdır. Ziddiyyətlər xarakteri, təzahür formaları və həlli vasitələrinə görə fərqləndiyindən bu proses ziddiyyətlərin yaranması və kəskinləşməsinin iqtisadi, sosial və mənəvi səbəblərini aydınlaşdırmaqdan başlanır.

---

[27] Cəfərova V.M. Bazar iqtisadiyyatına keçid: ziddiyyətlər və onların həlli yolları. Bakı: Azərbaycan, 1996, 198 s.; Mirbəşiroğlu E. Siyasi münaqişələr: mahiyyəti, quruluşu, həlli. Bakı: Elm, 2009, 524 s.; Mustafayev A. Fəlsəfədə ziddiyyətlər və münaqişələr problemi. Bakı: Nafta-Press, 2000, 57 s.; Şəfiyev Ü. Konfliktologiya. Siyasi-sosioloji təhlil. Bakı: Adiloğlu, 2002, 182 s.

Bu yarımfəsildə cəmiyyətdə mövcud olan ziddiyyətlər yaranma səbəblərinə görə qruplaşdırılıb:

1. Cəmiyyətin təbiətindən doğan ziddiyyətlər (məhsuldar qüvvələrlə istehsal münasibətləri, eləcə də onların əsas elementləri arasında; bazislə üstqurum; iqtisadiyyatın inkişafının ekstensiv və intensiv yolları arasında; istehsalla istehlak; ictimai mənafe ilə şəxsi mənafe arasında və s.)
2. Köhnə cəmiyyətdən miras qalan ziddiyyətlər (şəhərlə kənd; fiziki və zehni əmək; sənaye və kənd təsərrüfatı; istehsalın maddi-texniki və təşkilati tərəfləri arasında; köhnə psixologiya ilə yeni şüur arasında)
3. Subyektiv səbəblərdən doğan ziddiyyətlər (əmək haqqı ilə əmək məhsuldarlığının artım sürəti arasında; müasir istehsalın tələbi ilə təsərrüfatçılığın köhnə forma və metodları arasında; söz ilə iş arasında)
4. Fərdi antaqonizmlə bağlı ziddiyyətlər (birgəyaşayış normaları, həyat tərzi ilə mənfi hallar arasında)

Mənfi halların yaranma səbəbi iqtisadi, sosial-siyasi inkişafın çətinlikləri, cəmiyyət quruculuğunun mürəkkəbliyi, sosial dəyişikliklərin həyat tərzinin müxtəlif sahələrini eyni dərəcədə əhatə etməməsi, mənəvi tələbatların maddi tələbatların inkişaf səviyyəsindən geri qalması ilə bağlıdır. Belə hallar həm də cəmiyyətdə maddi bərabərsizliyin mövcud olması, demokratiya prinsiplərinin kobudcasına pozulması, rəhbər kadrların fəaliyyətində və gündəlik tərbiyə praktikasındakı nöqsanlarla əlaqədardır. Onları şərti olaraq 3 qrupa ayırmaq olar:

1.İstehsal münasibətlərində mövcud olan ziddiyyətlərlə bağlı mənfi hallar (əməyin təşkili, əmək şəraiti, maddi nemətlərin bölgüsü və istehlakı və s.)

2. Keçmiş sosial-sinfi strukturun təsiri, dövlətin, ictimai təşkilatların idarə olunmasında demokratiyanın məhdudlaşdırılması ilə bağlı mənfi hallar

3. Cəmiyyətin mənəvi həyatındakı geriliklə bağlı mənfi hallar (təhsil və tərbiyə sistemində, mənəvi tələbatların səviyyəsində, kütləvi informasiya vasitələri və təbliğatın cəmiyyət üzvlərinin şüuruna təsirində və s.)

Beləliklə, dövlətin təşkiledici qüvvəsi, bütün siyasi və ictimai təsisatlar sistemi mənfi hallara qarşı mübarizənin əsas vasitəsi olmalı, inandırma metodu, qanunun gücü, ictimai rəy, mətbuatın tənqidi sözü bu işdə ən kəsərli silaha çevrilməlidir.

**“Ziddiyyətlərin təzahür sahələri”** adlı ikinci yarımfəsildə cəmiyyət həyatının müxtəlif sahələrində təzahür edən ziddiyyətlərin (siyasi, iqtisadi, milli, mədəni, ideoloji, demoqrafik, ekoloji, dini və s.) nəticələrinin cəmiyyətin demokratikləşdirilməsi üçün yaratdığı maneələrə, demokratik rejimə keçidin yollarına diqqət yetirilmişdir.

Son konfliktoloji araşdırmalar göstərir ki, siyasi sistemin böhranı miqyasına görə iki səviyyədə baş verə bilər:

- böhran sistemin mexanizmlərini və orqanlarını, hüquqi və konstitusional qaydaları əhatə edir;
- böhran sosial-iqtisadi münasibətləri, mülkiyyət münasibətlərini əhatə edir.

Böhranın acı sosial nəticələrinin qarşısını almaq üçün aşağıdakı elmi-nəzəri müddəalara əsaslanmaq olar:

- siniflərin, təbəqələrin, partiyaların mənafeləri, niyyətləri və görəcəyi tədbirlər barədə qarşılıqlı və operativ informasiyaya malik olmaq;
- siyasətdə zorakılığa yol verməmək, münaqişəli vəziyyəti idarə oluna biləcək məcraya yönəltmək;
- münaqişələri kəskinləşdirə biləcək hərəkətlərə dövlət səviyyəsində qadağa qoymaq.

Tədqiqatçılar cəmiyyətdə siyasi münaqişələrin mənbəyini sosial (ictimai münasibətlərin müxtəlif formaları, siyasətin subyektinin məqsəd və funksiyaları, maraq və tələbatı və s.) və qeyri-sosial amillərlə əlaqələndirirlər.

Siyasi proseslərin xarakterinin dəyişməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi sosial amillərlə yanaşı, siyasi münaqişələrin nəticələrindən də asılıdır.

Sosial dəyərlərin çatışmaması (hakimiyyət, maddi ehtiyatlar, sosial nüfuz) daxili siyasi münaqişələrin mənbəyini təşkil edir və cəmiyyətin parçalanması üçün təhlükə yaradır. Elitanın başlıca funksiyası münaqişə tərəfləri arasındakı münasibətləri tənzimləmək olsa da, o, konflikti zorakılıq vasitəsilə aradan qaldırmağa çalışır. Bu isə elita əleyhinə olan qüvvələri ona qarşı çevirir və onu devirməyə sövq edir.

Siyasi elita ilə cəmiyyətin digər hissəsi arasındakı ziddiyyət nəticəsində siyasi birliklər daxilində münaqişələr yaranır. Münaqişə tərəfləri arasındakı münasibətlər iki formada təzahür edir: radikal və qismən münaqişə. Tərəflər arasında ziddiyyətlərin kəskinləşməsi onları zorakılıq vasitələrindən istifadə etməyə sövq edir.

İqtidarla müxalifət, mərkəzi hakimiyyətlə yerli hakimiyyət

arasında qarşılıqlı fəaliyyət, qrup və fərdlər arasındakı mübahisələr siyasətdaxili münaqişələr vasitəsilə üzə çıxır. Bu münaqişələrə xas olan ziddiyyətlər hakimiyyətin müxtəlif subyektləri arasındakı qarşılıqlı fəaliyyətin və siyasi proseslərin xarakterini əks etdirir.

İqtidarla müxalifət arasındakı ziddiyyət cəmiyyətdə siyasi gərginliyin obyektiv mənbəyini təşkil edir. Hakimiyyət maraqlarının təmsilçisi kimi hər bir siyasi rejim öz iqtidarının dayanıqlılığı üçün dəstəyin təmin olunmasına çalışır. Hakimiyyət öz nüfuzunu qorumaq üçün əhalini münaqişələrin inkişafından narahat olmadığına inandırmağa səy göstərir.

Müxtəlif maraqları nəzərə alan, həmrəylik və əməkdaşlıq ənənələrini formalaşdıran, qrup və korporativ siyasi fəaliyyətləri koordinasiya edən siyasi sistem sabit hesab olunur. Hakimiyyəti əhalinin əksəriyyəti və ya müəyyən hissəsi dəstəkləyə bilər. Hakimiyyətə dəstək müxtəlif ola bilər:

- vəziyyətə uyğun – bu cür dəstək dövlətin siyasi kursuna uyğun olaraq dövlət orqanları tərəfindən qəbul edilmiş konkret qərarlara, müraciətlərə, siyasi liderlərin şəxsi keyfiyyətlərinə verilən qiymətə əsaslanır;
- qarışıq – siyasi rejimə xas olan dəstək.

Siyasi rejimə dəstək iki səviyyədə həyata keçirilir:

- elitar dəstəyin əsas amili əhalinin sosial qrupları arasında resursların paylanmasını müəyyənləşdirən sosial-iqtisadi inkişaf dərəcəsidir;
- kütləvi dəstək əhalinin əksər hissəsinin qəbul etdiyi dəyərlərə (söz azadlığı, fikir plüralizmi, KİV-in sərbəst fəaliyyəti və s.), siyasi liderlərin və hakimiyyət strukturlarının davranışı müəyyənləşdirən sosial və siyasi normalara əsaslanır.

Mövcud rejimin kütləvi dəstəklənməsini şərtləndirən aşağıdakı amillərdir:

- cəmiyyətdə demokratik dəyərlərin yaranmasının davamlı və uzunömürlü olması;
- iqtisadiyyatın idarə edilməsində dövlətin iştirak dərəcəsi;
- şəxsiyyətin sosial müdafiəsinin təşkil olunma səviyyəsi;
- milli hüquq bərabərliyi;
- müxtəlif əhali qruplarının yaşayış səviyyəsinin artması;
- şəxsiyyətin təhlükəsizliyinin təmin olunması.

Dinamik sistemlərdə tarazlığın saxlanması adətən «neftrallaşdırıcı» ekzogen (xarici səbəblərdən yaranan) və endogen

(daxili səbəblərin doğurduğu) proseslərdən asılıdır.

Siyasi sabitliyi təsir imkanlarına (daxili və xarici), əldə olunma qaydasına (demokratik və avtoritar) və etibarlılıq dərəcəsinə görə (yüksək, orta və aşağı səviyyəli) səciyyələndirmək olar.

Bu yarımfəsildə siyasi proseslərin nəzarətdən çıxması, hüquqa və qanunçuluğa zidd məcraya yönəldilməsinin siyasi həyatda yaratdığı qeyri-sabitliyin sosial nəticələri müəyyənləşdirilmiş, partiyalaşmanın siyasi proseslərə təsiri nəzərdən keçirilmişdir.

Dissertasiyada siyasi proseslərin ziddiyyətli inkişafının milli münasibətlər sahəsində yaratdığı qeyri-sabit vəziyyət və onun sosial nəticələri (milli eqoizm, millətçilik, saxta vətənpərvərlik, milli nihilizm və s.) araşdırılmışdır.

Tədqiqat işində müasir dövrdə dini şüurda baş verən dəyişikliklərə, onların səbəbləri və nəticələrinə də diqqət yetirilmişdir.

Cəmiyyətdə dindarlığın dərəcəsi, səviyyəsi və xarakteri dini şüur, dini davranış, dini münasibətlərin müxtəlif göstəriciləri ilə müəyyənləşir. Dindarlığın dərəcəsi dinin insana, sosial qrupa təsirini, dindarlığın səviyyəsi müəyyən ərazidə dindar və dindar olmayan əhalinin münasibətini, dindarlığın xarakteri isə bu və ya digər sosial qrupun dindarlıq cəhətdən fərqini və spesifikliyini aydınlaşdırır. Dinin mədəniyyətə, xalqın adət və ənənələrinə nüfuz etməsi insanların dini ibadətlərdə fəal iştirakını şərtləndirir. İctimai qrup və fərdi şüurun sekulyarlaşması prosesində bir-biri ilə qarşılıqlı əlaqədə olan 3 istiqamət diqqəti cəlb edir:

1. Dini ideologiyanın təsirinin azalması ilə dini şüurda dəyişikliklərin baş verməsi, şəriətin modernləşdirilməsi.
2. İctimai və fərdi şüurda elmi-ateist dünyagörüşü elementlərinin qərarlaşması.
3. Dini laqeydliyin artması.

Cəmiyyət həyatının bütün sahələrinin demokratikləşdirilməsi dövlətlə dini qurumlar arasındakı qarşılıqlı münasibətlərə də toxunmuşdur. Bu münasibətlərin demokratik cəhəti siyasi birliyə, bir-birinin işlərinə müdaxilə etməməyə, ideoloji konfrantasiyaya əsaslanır. Dövlətin bu prinsiplərə riayət etməməsi «dövlət tərəfindən ateistləşmə»yə, dini təşkilatlar tərəfindən riayət olunmaması isə klerikalizmin inkişafına səbəb olur. Klerikalizm cəmiyyətin siyasi və mənəvi həyatında dinin rolunu və dini təşkilatın mövqeyini möhkəmləndirir. Dövlət siyasətinə münasibətdə onun iki istiqaməti müşahidə olunur:

1. Ekstremist əhval-ruhiyyəli dini birliklərin tələb və fəaliyyətinin

ibadət haqqında qanunvericilikdən kənara çıxması.

2. Dini plüralizmin inkişafı. Onların sosial siyasət sahəsində əməkdaşlığı dindarların cəmiyyət həyatının bütün sahələrində fəal iştirakını təmin edir.

Hazırda müasir siyasi strukturlar öz işini yeni səviyyədə qurduğu bir dövrdə ideoloji mübarizə yeni forma və məna kəsb edir. O, çoxsahəliliyi və çoxtərəfliliyi ilə seçilir. Artıq konfrantasiya və qarşıdurmalar güclənsə də, ideologiya sahəsində güc tətbiq edilməsi keçilmiş mərhələ hesab olunur. Odur ki, indi ideologiya sahəsində daha sivil, daha təkmil və daha güclü metodlara keçid başlamışdır. İdeoloji fəaliyyət hər bir dövlətin, siyasi quruluşun, iqtisadi sistemin siyasətinə uyğun formalaşır. İdeoloji münasibətlərin köməyilə ideologiyanın cəmiyyətdə gedən sosial-iqtisadi proseslərlə əks əlaqəsi təmin olunur.

Sosial sistem yaranan ziddiyyətləri tez aradan qaldırmaq vəzifəsini yerinə yetirə bilmədiyi üçün tədricən cəmiyyət üzvlərində mövcud qayda, prinsip və dəyərlərin səmərəsinə inam azalır. Gerçəkliyin ziddiyyətləri ideologiyanın mənbəyini təşkil edir.

Təfəkkürün məzmunu ilə onun formaları arasında ziddiyyətin yaranması gerçəkliyin dərk olunmasının universal qanunauyğunluğu kimi meydana çıxır.

Cəmiyyətdə hansı dünyagörüşünün üstün olması iki mühüm amillə bağlıdır:

1. Ümumi dərketmə və düşüncənin məzmun və səviyyəsi.
2. Sosial və siyasi amillər (maraq dairəsi, mövcud siyasi rejimin əsaslandığı ideologiya).

Beləliklə, dünyaya sabit, ehkamlaşdırılmış prinsiplər baxımından yanaşmaq düzgün deyil. Buna görə də bütün cəmiyyət üçün eyni dünyagörüşünün formalaşdırılması məsələsi fəlsəfi baxımdan mübahisəlidir.

İdeologiyanın fəaliyyət sferasını onun məzmunu ilə sosial qrup və birliklərin mənafeləri arasında funksional asılılıq təyin edir.

Bu gün ideoloji işin ideya səviyyəsini yüksəltmək, onu həyatla, cəmiyyətdə gedən proseslərlə əlaqələndirmək mühüm əhəmiyyət kəsb edir. Bunu həm də düşmən ideologiyasının daha çevik və sistemli fəaliyyəti nəticəsində ölkəmizə qarşı siyasi və ideoloji təxribatlar şəbəkəsinin genişlənməsi, respublikanı siyasi, iqtisadi və informasiya blokadasına almaq cəhdləri tələb edir. İdeoloji fəaliyyətin qarşısında duran ən mühüm tələblərdən biri aşkarlıq və düzgünlük prinsiplərinə dönmədən əməl etməkdir.

Müstəqilliyin ilk illərində ideoloji durumu iki cəhət səciyyələndirirdi:

1. Konkret idealların olmaması nəticəsində ideoloji qeyri-müəyyənlik, ideya-mənəvi çaşqınlıq, sosial-siyasi proseslərdə «ideologiyasızlaşma»;

2. Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə, milli birliyin yaranmasına xidmət edən ideologiyaya tələbatın yaranması.

Təbii ki, milli, demokratik dövlətdə ideoloji işin yeni sistemini qurmaq və onu dövlət maraqları baxımından həyata keçirmək zəruridir. İdeoloji iş adi şüuru elmi səviyyəyə qaldırmalı, cəmiyyət üzvlərinin dünyagörüşünü genişləndirməli, onların sosial sərvətləri və əxlaq normalarını mənimsəməsinə kömək etməlidir. İdeoloji işin səmərəliliyi ictimai həyatın bütün sahələrində fəallığın artması ilə, söz ilə işin vəhdətinin təmin olunması, cəmiyyət üzvlərinin yetkinliyi ilə müəyyənləşir. İdeologiyanın gücü onun kütlələr arasında nə dərəcədə yayılmasından, xalqda dövlətə inam yaratmasından asılıdır.

Dəyərlər, norma və birgəyaşayış qaydaları, sosal həyatda keyfiyyət dəyişiklikləri siyasi ideologiyanın yeniləşməsini şərtləndirir. Möhkəm və sabit ictimai ideallar və ya onların kompleksindən yaranan vahid ideal sabaha inamsızlığı aradan qaldırır, nikbinliyi artırır. İdeologiyanın gücü cəmiyyət üzvlərinin daxili inamına, cəmiyyətə xidmət etmək vasitəsinə çevrilməsindədir. Əgər ideologiya cəmiyyət həyatında baş verən dəyişiklikləri, yeni yaranan prosesləri nəzərə almırsa, öz prinsiplərini ehkama çevirib mühafizəkarlığa əsaslanırsa, belə ideologiya məhvə məhkumdur. Buna görə də ideologiya cəmiyyətdə milli birliyin təmin olunmasına, strateji məqsədlərin reallaşdırılmasına xidmət etməlidir.

Müstəqillik dövründə cəmiyyətin bütün sahələrini bürümüş böhran elmdə də dərin kök salmışdır. Uzun illər cəmiyyətin əsas üstqurumu, fundamental strukturu kimi çıxış edən elm özünün müstəqilliyini itirmişdir. Sosial sifarişlərin verilməsi, tədqiqatların istiqamətləndirilməsi nəticədə elmi dövlətin inhisarına çevirmişdir. Elmi institutlarda inzibati metodların tətbiqi, kargüzarlıq işinin şişirdilməsi, demokratik mühitin məhdudlaşdırılması elmin bürokratlaşmasına səbəb olmuşdur. Elm dövlət oliqarxiyasından, siyasi idarə strukturlarından asılı vəziyyətə düşmüş, onların bacarıqsızlığı və özbaşınalığı qarşısında müdafiəsiz qalmışdır.

Ayrı-ayrı kollektivlərin, elmi işçilərin fəaliyyəti çap olunmuş əsərlərin keyfiyyətinə görə deyil, sayına görə qiymətləndirildiyindən elm

yüksək mənəvi sərvətdən əmtəəyə çevrilmişdir.

Elmdə baş verən böhranı aşağıdakı xüsusiyyətlər səciyyələndirir:

- dünya ölkələrinin elmi nailiyyətlərindən istifadə edilməməsi;

- vaxtı ilə dövlət tərəfindən müəyyən elmlərə güclü diqqət yetirilməsi, maliyyələşdirmə məsələlərində onlara böyük üstünlük verilməsi. Bu sistemdə ideoloji-siyasi prinsiplərin əsas götürülməsi bütövlükdə elmi yardımçı bir sahəyə çevirmiş, hərbi-sənaye kompleksi çərçivəsindən kənarda qalan elmlər qiymətdən düşmüş, nüfuzsuzlaşmışdır.

Bu gün cəmiyyətin elmə, onun daşıyıcılarına münasibəti köklü surətdə dəyişməlidir. Elm dövlətə, onun hərbi sənaye kompleksinə deyil, cəmiyyətə, insanlara xidmət etməlidir. Unutmaq olmaz ki, xalqın milli azadlıq yolunda müvəffəqiyyəti onun milli aristokratiyasının, ziyalı təbəqəsinin formalaşmasından çox asılıdır.

Uzun müddət alimin iş şəraitinin yaxşılaşdırılmasına, onun nüfuzunun yüksəldilməsinə əhəmiyyət verilmədiyi üçün "zəka axını" güclənmiş, alimlərin müəyyən hissəsi qazanc dalınca müxtəlif assosiasiyalara, ölkələrə üz tutmuşlar.

İllərlə dövlət elmi ideyaların istehsalata tətbiqi qayğısına qalmadığı üçün mövcud bürokratik əngəllər iqtisadiyyata böyük zərər vurmuşdur. Məsələn, 1992-ci ildə Azərbaycan Elmlər Akademiyasının elmi müəssisələrində 120 mövzu üzrə iş başa çatdırılsa da, yalnız 56 elmi nəticə istehsalata tətbiq olunmuş və bundan 96 milyon rubl iqtisadi səmərə əldə edilmişdir.

Bazar iqtisadiyyatına keçid dövründə elmin müstəqil, sosial-siyasi strukturlardan asılı olmadan inkişafını təmin edən mexanizm yaratmaq üçün aşağıdakı tədbirlər həyata keçirilməlidir:

- müasir tələblərə cavab verən maddi-texniki baza yaradılmalı;

- fundamental elmi tədqiqatlar dövlət tərəfindən maliyyələşdirilməli;

- elmi tədqiqatların nəticələri istehsalata tətbiq olunmalı;

- elmi dirçəliş birbaşa təhsil sistemi ilə əlaqədar olduğundan ali təhsil sistemində olan böhran aradan qaldırılmalıdır. Bu məqsədlə ali təhsildə ciddi islahatlar aparılmalı, tədqiqat bazası yaratmaqla elmi mərkəzlər üçün intellektual baza formalaşdırılmalıdır;

- elmin dünya elminə inteqrasiyası üçün əməkdaşlığın müxtəlif forma və üsullarından istifadə edilməlidir.

Elm və texnika bir tərəfdən ekoloji ziddiyyətlərin meydana gəlməsini şərtləndirirsə, digər tərəfdən onların həll edilməsində mühüm

rol oynayır.

Sosial-ekoloji siyasətin əsasında təbiətdən istifadənin dövlət tərəfindən hazırlanmış təsirli fundamental elmi prinsipləri durmalıdır.

Sosial-ekoloji siyasətin məqsədi aşağıdakı cəhətlərlə müəyyənləşir:

- əhalinin həyat tərzinin təkmilləşdirilməsi əsasında ətraf mühitin sağlamlaşdırılması;
- sənaye və kənd təsərrüfatı istehsalının zərərsiz texnologiya əsasında qurulması;
- təbii mənbələrin qorunması və onlardan səmərəli istifadə;
- istehsalın bərpası və genişləndirilməsi;
- canlı təbiətin genefondunun qorunması və mühafizə olunması;
- insanın fəaliyyəti nəticəsində ətraf mühitdə baş verən dəyişikliklər üzərində nəzarət.

İnsanla təbiət arasındakı qarşılıqlı münasibətlər zaman etibarilə çoxlu ziddiyyətlər, problemlər yaratmışdır. K.Marks vaxtı ilə qeyd edirdi ki, təbii, mədəni və sosial sərvətlərdən vəhşicəsinə istifadə olunması fəlakətlər doğurur. “Əgər mədəniyyət kortəbii inkişaf edirsə, şüurlu idarə olunmursa... özündən sonra boş səhra, viranəlik qoyub gedir”.[28]

Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, «Eybəcər hala salınaraq şikəst edilmiş təbiətlə təmas dağıdıcı impulslara təkan verir, fiziki və psixoloji sağlamlığın məhv edilməsinə gətirib çıxarır». [29]

Əgər əvvəllər təbiətə qarşı yönələn təhlükə lokal və regional xarakter daşıyırdısa, hazırda bu təhlükə qloballaşmışdır.

Ekoloji böhranın kəskinləşməsi aşağıdakı səbəblərlə bağlıdır:

- istehsalat gücünün artması və elmi-texniki tərəqqinin yüksəlişi ilə əlaqədar təbii sərvətlərin intensiv və ekstensiv istismarı;
- hərbi sənayenin inkişafı ilə əlaqədar təbiətə göstərilən antiekoloji təsir;
- ətraf mühitin keyfiyyətinə, ondan istifadənin xarakterinə və təbii ehtiyatların təkrar istehsalına ictimai nəzarətin bütün vasitə və formalarının zəifliyi.

Beləliklə, ekoloji böhran mövcud istehsal üsulu ilə təbiətin köhnə metodlarla istismarı arasındakı ziddiyyətin dərinləşməsinin nəticəsidir.

Hər bir cəmiyyətdə insanların həyat tərzi onların yaşadığı ictimai-

---

[28] Marks K., Engels F. Əsərləri, II cild. Bakı: Azərnəşr, 1980, s. 45

[29] Акимова Т.А., Кузмин А.П., Хаскин В.В. Экология. Природа-Человек-Техника. М.: Юнити-ДАНА, 2000, с. 100

iqtisadi quruluşdan, o cümlədən mövcud istehsal üsulundan asılıdır. İstehsal üsulu sosial, siyasi və mənəvi prosesləri şərtləndirən, həyat tərzinin formalaşmasının sosial-iqtisadi əsasını, onun dəyişməsini, inkişafını müəyyən edən amildir.

Həyat tərzi mövcud ictimai quruluşun tərkib hissəsi olub insanların həyatının sosial təşkilini, onların qarşılıqlı münasibətlərini, birgəyaşayış normaları və qaydalarını, maddi və mənəvi sərvətlərdən cəmiyyət xeyrinə istifadə dərəcəsini ifadə edir.

Cəmiyyətin siyasi sistemi ilə onun həyat tərzi arasındakı qarşılıqlı təsir maddi şəraitlə, əhalinin mədəni səviyyəsi, idarəetmə aparatının təkmilləşməsi, ictimai inkişafın ziddiyyətlərinin vaxtında aşkar edilməsi və aradan qaldırılması ilə şərtlənir.

Bazar iqtisadiyyatına keçid şəraitində yeni həyat tərzinin yaranması qanunauyğun bir prosesdir. O, cəmiyyətdəki meylləri səciyyələndirməklə yanaşı, onun inkişaf dialektikasını da əks etdirir.

Həyat tərzi daim dəyişən və zənginləşən sosial hadisədir. Onun inkişafı cəmiyyətin iqtisadi, sosial-siyasi sisteminin və ictimai münasibətlərin təkmilləşməsindən, maddi-texniki bazanın yaranmasından, ideoloji, siyasi tərbiyə işinin səviyyəsindən asılıdır. Həyat tərzi keçmişin və müasir sosial həyatın mütərəqqi cəhətlərini özündə ehtiva etməklə yanaşı, cəmiyyət üzvlərinin şüur və davranışının yeni xüsusiyyətləri ilə də səciyyələnir. Beləliklə, cəmiyyətin siması həyat fəaliyyətinin obyektiv proseslərinin təsiri altında formalaşır.

Cəmiyyətin bugünkü vəziyyəti, qarşıda duran vəzifələrin yerinə yetirilməsi ictimai həyatın bütün sahələrini əhatə edən sosial siyasətə tələbat doğurur. Belə ki, cəmiyyətin irəliyə doğru inkişafı getdikcə sosial amillərdən daha çox asılı olur və ictimai inkişafda sosial istiqamətin güclənməsi obyektiv qanunauyğunluq kimi çıxış edir.

Sosial siyasət iqtisadi və mədəni siyasətlə vəhdət təşkil edir. Onun iqtisadiyyatın səmərəliliyinin artmasına, ictimai həyatın bütün cəhətlərinə təsiri böyükdür. Hərçənd sosial həyatın müxtəlif formaları təkmilləşdikcə ictimai inkişafın iqtisadi əsası ilə onun sosial məzmunu və mənəvi istiqaməti arasındakı əlaqələr də mürəkkəbləşir.

Sosial siyasət əmək və həyat şəraitinə təsir göstərərək cəmiyyət üzvlərinin mədəni səviyyəsinin yüksəlməsinə, onların yaradıcılıq qabiliyyətinin inkişafına, millətlərarası münasibətlərin təkmilləşməsinə kömək edir. Həm də cəmiyyətin sosial strukturuna, onun ünsürlərinin qarşılıqlı münasibətlərinə və mütərəqqi inkişafına fəal təsir göstərir, sosial-siyasi və ideya birliyini gücləndirir.

Sosial siyasət mürəkkəb struktura malik çoxcəhətli proses olub, cəmiyyətin inkişaf səviyyəsini əks etdirir. O, insanların maddi, sosial və intellektual tələbatlarının ödənilməsinə yönəldiyi üçün humanist təbiətə malikdir. Sosial müdafiə vətəndaşları iqtisadi və sosial deqredasiyanın (işsizlik, gəlirin itirilməsi və ya kəskin azalması, xəstə uşağın doğulması, əmək xəsarətləri, peşə xəstəlikləri, əlillik, qocalıq, valideyni itirmək və s.) nəticələrindən müdafiə edir.

Hər bir cəmiyyətdə sosial siyasətin səmərəliliyi sosial tələblərin öyrənilməsi və nəzərə alınması, sosial prioritetlərin müəyyənləşdirilməsi və bu əsasda onun formalaşdırılmasından asılıdır. Sosial siyasətin məqsədi cəmiyyət üzvlərinin sosial tələbləri və maraqlarının təminatı üçün şərait yaratmaq, vətəndaşlara sosial yardım göstərmək, onların sosial müdafiəsini təşkil etmək, əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq və sosial ədaləti bərqərar etməkdir.

Sosial siyasət siyasi sabitliyi, milli təhlükəsizliyi təmin etmək və sosial gərginliyi aradan qaldırmaq baxımından böyük əhəmiyyət kəsb edir. O, cəmiyyət üzvlərinin həyat səviyyəsini və əmək şəraitini yaxşılaşdırmaq, sosial ədaləti və müdafiəni həyata keçirmək, millətlərarası münasibətləri tənzimləmək, ölkədə demokratik şəraiti normallaşdırmaq kimi vəzifələri yerinə yetirir, əlverişli sosial-psixoloji mühitin yaranmasına kömək edir.

Bu yarımfəsildə sosial siyasətin formalaşma mərhələlərinə xüsusi diqqət yetirilmişdir.

İllərlə dövlət elmi ideyaların istehsalata tətbiqi qayğısına qalmadığı üçün mövcud bürokratik əngəllər iqtisadiyyata böyük zərər vurmuşdur.

**“İqtisadi ziddiyyətlər və onların sosial nəticələri”** adlı üçüncü yarımfəsildə iqtisadi müstəqilliyin siyasi müstəqilliyi möhkəmləndirmək üçün əhəmiyyətindən bəhs olunur.

Mükəmməl bazar mexanizminin bərqərar olması iqtisadiyyatın strukturunu yenidən qurmağı, onu cəmiyyət üzvlərinin ehtiyaclarına doğru yönəltməyi, əməyə münasibəti əsaslı surətdə dəyişdirməyi tələb edir.

Onilliklər ərzində respublikanın müstəqillikdən məhrum edilməsi, xalq təsərrüfatının idarə edilməsinin müxtəlif vəsilələrində rəhbər kadrların mərkəz tərəfindən müəyyənləşdirilməsi, İttifaq tabeliyində olan müəssisə, birlik və təşkilatların təsərrüfat fəaliyyətinin nəticələrində respublikanın və onun regionlarının məsuliyyət və marağının zəifləməsi iqtisadiyyatda hərcmərclik, özbaşınalıq yaratmışdı.

Bu yarımfəsildə bazar iqtisadiyyatına keçid dövründə yaranan iqtisadi ziddiyyətlərə, onların təzahür formalarına diqqət yetirilmiş, iqtisadiyyatın inkişafına mənfi təsir göstərən amillər nəzərdən keçirilmiş, iqitsadiyyatın tənzimlənməsində dövlətin istifadə etdiyi forma və metodlar açıqlanmış, regionların iqtisadi inkişafında mövcud problemləri doğuran amillər müəyyənləşdirilmişdir:

- demoqrafik vəziyyətin dəyişməsi, genofondun pisləşməsi, əhalinin kəskin təbəqələşməsi;
- məhsuldar qüvvələrin qeyri-səmərəli yerləşdirilməsi, ekoloji problemlərin artması, təbii sərvətlərdən səmərəli istifadə edilməməsi;
- ixtisaslaşmış istehsalın həcminin aşağı düşməsi;
- işsizliyin artması;
- regionlarda qaçqın və məcburi köçkünlərin sayının çoxalması;
- infrastrukturun zəif inkişafı.

**"Ziddiyyətlərin aradan qaldırılması həyat tərzini təkmilləşdirməyin mühüm şərtidir"** adlı üçüncü fəsil üç yarımfəsildən ibarətdir. "Demokratik inkişaf prosesi ziddiyətlərin həll olunması vasitəsi kimi" adlı birinci yarımfəsildə ziddiyyətlərin həlli üçün sosial münasibətlərin bütün sisteminin demokratikləşdirilməsinin əhəmiyyətindən, demokratik rejimə keçidin yollarından, demokratik cəmiyyət quruculuğu prosesinə təsir edən amillərindən bəhs olunur.

Hazırda əsas vəzifə demokratiyanın bütün mexanizmindən geniş istifadə etmək, cəmiyyət işlərinin idarə edilməsində insanların fəal iştirakına nail olmaq, bütün ictimai qüvvələri strateji xəttin həyata keçirilməsi uğrunda mübarizəyə cəlb etməkdən ibarətdir. Məhz belə bir ictimai zəmin əsasında fəaliyyət göstərən demokratiya inkişaf edərək cəmiyyətin özünüidarəsinə yüksələ bilər.

Aşkarlıq, siyasi plüralizm, çoxpartiyalılıq, mətbuat azadlığı və s. vətəndaşların hüquq və azadlıqlarının genişləndirilməsi, sosial inkişafın demokratik əsaslarının möhkəmlənməsi üçün əlverişli şərait yaradır.

Bu yarımfəsildə siyasi plüralizmin təzahür formalarına (bürokratik mərkəzçilikdən əl çəkmək, çoxpartiyalılıq şəraitində qərarların hazırlanması və qəbul edilməsində müxtəlif fikirləri nəzərə almaq; müxtəlif tərəflərin öz mövqelərini şərh etməsi üçün imkan yaratmaq), demokratik proseslərin göstəricisi olan KİV-in vəziyyətinə, onun statusuna diqqət yerilmişdir.

**"Qanunçuluğun möhkəmləndirilməsinin cəmiyyətin təkmilləşdirilməsində rolu"** adlı ikinci yarımfəsildə onilliklər ərzində qanunun həyatla ayaqlaşmamasının hüquqi nihilizmin yaranmasına,

sosial problemlərin həllində onun potensial imkanlarına inamsızlığın meydana gəlməsinə, qanunun səmrəsizliyinin azalmasına təsiri, qanunların bugünkü vəziyyətinin səbəbləri açıqlanmışdır.

Bu yarımfəsildə cəmiyyətdə ədalətin bərqərar olması, qanunçuluğun gücləndirilməsi və asayışın qorunması sisteminin yaranmasında hüquqi islahatların rolu müəyyənləşdirilmiş, demokratik, hüquqi dövlət üçün səciyyəvi olan əlamətlərə diqqət yetilmişdir. Hüquqi dövlət quruculuğu çox çətin, uzunmüddətli və məsuliyyətli bir prosesdir. İlk növbədə belə bir dövlətin hüquqi bazası, iqtisadi və mənəvi-əxlaqi əsasları, təfəkkür tərzinin, ənənəvi vərdişlərin, cəmiyyətlə şəxsiyyət arasındakı münasibətlər sisteminin yeni mexanizminin üslub və metodları yaradılmalıdır.

**“Səmərəli idarəetmə sisteminin yaradılması ziddiyyətlərin aradan qaldırılmasının əsas şərtidir”** adlanan üçüncü yarımfəsildə idarəetməyə tələbatın artması yeni cəmiyyət quruculuğu, təsərrüfat strukturundakı dəyişikliklərlə əlaqələndirilir, icitmai qayda və əlaqələrin, mütəşəkkiliyin təmin edilməsində onun rolu açıqlanır, bazar iqtisadiyyatına keçid dövründə idarəetmənin cəmiyyətin obyektiv tələbatına uyğunlaşdırılmasının əhəmiyyətindən bəhs olunur.

İqtisadi sistemin inzibati-amirlik formasından daha mütərəqqi formasına-bazar iqtisadiyyatına keçid bütövlükdə idarəetmə funksiyasının yenidən qurulmasını və bununla əlaqədar qarşıya çıxan problemlərin təxirə salınmadan həllini tələb edir. İstehsal münasibətlərinin və onun əsasını təşkil edən mülkiyyət münasibətlərinin dəyişməsi, yeni bölgü mexanizminin tətbiqi mərkəzi idarəetmə orqanlarının funksiyalarını xeyli məhdudlaşdırır. Bununla əlaqədar idarəetmənin əsas elementləri olan planlaşdırma, uçot, nəzarət, təhlil və təşkilin əhəmiyyəti getdikcə artır.

Bazar münasibətləri idarəedən şəxsin bazar iqtisadiyyatının strukturunu mükəmməl bilməsini, çevik iqtisadi təfəkkürə malik olmasını, müstəqil xarici iqtisadi əlaqələrə girmək bacarığını, dünya iqtisadiyyatından baş çıxarmasını tələb edir. Mövcud şərait iqtisadi sistemin əsl idarəedənləri və menecerlərinin formalaşmasını həyati zərurətə çevirir.

Ümumiyyətlə, idarəetmə fəaliyyətini sərtləşdirmək üçün bir sıra tədbirlər həyata keçirilməlidir:

- kadr ixtisarı və paralel strukturların ləğvi hesabına qənaət edilən vəsaiti əmək haqlarının qaldırılmasına yönəltmək;
- nağd vəsaitlərlə həyata ke?irilən əməliyyatları

leqallaşdırmaq və uçotda əks etdirmək, vergidən yayınma hallarının qarşısını almaq;

- sosial sığorta ayırmalarını sosial vergilərlə əvəz etmək və onların dərəcəsini aşağı salmaq;
- vergivermə mədəniyyətini formalaşdırmaq və bu məqsədlə maarifləndirmə və stimullaşdırma işlərini təşkil etmək;
- lisenziya xidmətini sadələşdirmək və vergi orqanlarının obyektiv nəzarətini gücləndirmək.

**Nəticə**də tədqiqata yekun vurulmuş, məntiqi umumiləşdirmələr əsasında nəzəri və praktik əhəmiyyət kəsb edən təklif və tövsiyələr irəli sürülmüşdür.

**Dissertasiya mövzusu ilə əlaqədar müəllifin aşağıdakı elmi əsərləri çap olunmuşdur:**


1. Пути и методы устранения антиподов коммунистической морали // XXVI съезд КПСС и актуальные проблемы марксистско-ленинской философии Москва, 1984, с. 129-131
2. Bazar iqtisadiyyatına keçid: ziddiyyətlər və onların sosial nəticələri. Monoqrafiya, Bakı: «Azərbaycan» nəşriyyatı, 1995
3. Bazar iqtisadiyyatına keçid: ziddiyyətlər və onların həlli yolları. Monoqrafiya, Bakı: «Azərbaycan» nəşriyyatı, 1996, 198 s.
4. Keçid dövrünün siyasi ziddiyyətləri // Sosial-siyasi. prob. top., Bakı: «Təbib», 1998, s. 155-159
5. Ziddiyyətlərin aradan qaldırılması həyat tərzini təkmilləşdirməyin mühüm şərtidir // Sosial-siyasi fəlsəfə problemləri (toplu). Bakı: «Araz», 1999, s. 111-116
6. Müstəqillik dövründə kadr siyasəti və onun nəticələri // Sosial-siyasi fəlsəfə problemləri (toplu). Bakı: «Araz», 1999, s. 123-126
7. Sosial təsisatlar. Kitabça. Bakı: «Elm» , 2000, 27 s.
8. Dünya dövlətlərinin siyasi sistemi: ABŞ. Kitabça. Bakı: Elm, 2000, 31 s.
9. Dünya dövlətlərinin siyasi sistemi: Yaponiya. Kitabça. Bakı: Elm, 2000, 34 s.
10. Dünya dövlətlərinin siyasi sistemi: Türkiyə Respublikası. Kitabça. Bakı: Elm, 2000, 43 s.
11. Partiyalaşmanın siyasi proseslərə təsiri // Sosial-siyasi prob. (toplu), VI bur., Bakı: «Qartal», 2001, s. 74-76
12. Azərbaycan müstəqillik dövründə: problemlər, perspektivlər (1991-2003). Monoqrafiya. Bakı: «Şirvannəşr», 2003, 292 s.

13. Die wirkichkeiten Azerbaidschans // Deutsch-Azerbaidschanisches Journal. Berlin Ausgabe. 2006, №5, s. 22-23

14. Müstəqillik dövründə Azərbaycan cəmiyyətinin demokratikləşməsi və onun nəticələri // «Tarix və onun problemləri». Bakı: «TS», 2006, №4, s. 249-256

15. Keçid dövrünün mahiyyəti // «Elmi axtarışlar». XXIX bur., Bakı: Səda, 2006, s. 217-221

16. Keçid dövründə cəmiyyətin sosial strukturu // "Tarix və onun problemləri". Bakı: BU, 2009, №4, s. 308-311

17. Экономические аспекты социальной напряженности / Проблема социальной напряженности: материалы межд. научно – практической конференции (5-6 июня 2010 г.). Пенза-Прага: «Социосфера», 2010, с. 105-110

18. Demokratiyanın inkişaf etdirilməsi ziddiyyətlərin həll olunmasında mühüm vasitədir // NDU. Elmi əsərlər (İctimai elmlər seriyası), 2010, №2 (34), s. 118-123

19. Распад семей: причины и социальные последствия. / Материалы межд. научно – практической конференции (5-6 октября 2010 г.). Пенза-Прага: «Социосфера», 2010, с. 54-58

20. Müstəqillik dövründə Azərbaycanda KİV-in vəziyyəti və sosial statusu // NDU. Elmi əsərlər (İctimai elmlər seriyası), 2011, №2 (39), s. 56-59

21. Müstəqillik dövründə Azərbaycan Respublikasının sosial siyasəti: istiqamətləri və sosial nəticələri // NDU. Elmi əsərlər (İctimai elmlər seriyası), 2012, №2 (47)

22. Особенности развития политической системы в условиях демократического транзита // Вектор науки, №1 (12), Тольятти, 2013, с. 110-112

23. Основные направления обеспечения продовольственной безопасности страны в переходный период // Філософія і політологія в контексті сучасної культури. Науковий журнал. Випуск 6 (2), Дніпропетровськ, 2013, с. 66-69

24. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə sosial-siyasi baxış // Tarix və onun problemləri, Bakı, 2013, № 4 , s. 163-169

25. Keçid dövrünün iqtisadi ziddiyyətləri və onların sosial nəticələri // Sivilizasiya (elmi-nəzəri jurnal), 2013, № 5 , Bakı: Avrasiya Universiteti, s.28-34

26. Теоретико-концептуальные основы переходного периода рыночной экономики // Гілея, Науковий вісник, Випуск 79 (№ 12),

Киів, 2013, с. 325-327

27. Bazar iqtisadiyyatına keçid: beynəlxalq təcrübə və sosial nəticələr // Geostrategiya, (ictimai-siyasi, elmi-populyar jurnal), 2013, № 06 (18), noyabr-dekabr, s. 56-59

28. Geosiyasi amillərin beynəlxalq münasibətlərə təsiri // "Geoiqtisadiyyatın geosiyasətə təsiri" mövzusunda Ümumrespublika konfransı. BDU. Bakı, 2014, s. 210-214

29.Keçid dövrünün təşəkkülü və inkişaf mərhələləri // Geostrategiya, 2014, №3, may-iyun, s. 28-31

30. Keçid dövründə Azərbaycan Respublikasının milli inkişaf strategiyası // Sivilizasiya (elmi-nəzəri jurnal), 2014, №4, Bakı: Avrasiya Universiteti, s. 31-37

31. Dinin cəmiyyətdə yeri və rolu: dini ziddiyyətlər və onların sosial nəticələri // BDU. İlahiyyat fakültəsinin elmi məcmuəsi, 2014, №21 (iyun), s. 421-427

32.Causes and sosial sonsequences of armenia-Azerbaijan, naqorno-Karabah conflikt. İnternational Journal of Current life Scienses. Vol. 4, issue 9, September, 2014, pp. 5936-5940

33. Siyasi sabitlik milli inkişafın mühüm şərti kimi // AMEA. Elmi əsərlər. Bakı, 2014, № 1 (21). s. 33-38

34. Qadının cəmiyyətdə yeri və rolu // "Azərbaycanda gender problemləri: mövcud vəziyyət və əsas istiqamətlərdə inkişaf" mövzusunda III Respublika konfransının materialları (4 mart, 2014), Azərbaycans. 280-283

35. Ekoloji ziddiyyətlər: səbəbləri və sosial nəticələri // Sivilizasiya (elmi-nəzəri jurnal), 2014, №11, Bakı: Avrasiya Universiteti, s.15-21

36. Qloballaşma dövrünün ziddiyyətləri : səbəbləri və nəticələri // "Qloballaşma şəraitində diplomatik münasibətlərin iqtisadi və siyasi xüsusiyyətləri" mövzusunda respublika elmi-praktiki konfransının materialları. Bakı, 2014 (27-28.11.2014), s. 34-39

37. Визуальная коммуникация как основное средство СМИ // "Актуальні питания суспільных наук: наукові дискусіі". Матеріали міжнародноі науково-практично конференціі (м. Киів , Украіна, 14-15 серпия, 2015 року). Киів: ГО " Киівська наукова суспільнознавнча організація" , 2015, с 70-74

**В. М. Оруджева**

# ПЕРЕХОД К РЫНОЧНОЙ ЭКОНОМИКЕ: ПРОТИВОРЕЧИЯ И ПУТИ ИХ РАЗРЕШЕНИЯ (СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ)

В процессе независимого государственного строительства выявление противоречий переходного периода к рыночной экономике, определение их причин, спектра воздействия, путей разрешения и социальных последствий является важной исследовательской задачей.

Диссертационная работа состоит из введения, трех глав (9 параграфов), заключения и списка изпользованной литературы. Во введении обосновывается актуальность проблемы, цели и задачи исследования, методологическая основа, отмечена научная новизна, теоретическая и практическая значимость, приводятся данные об апробации работы и ее структуре.

В первой главе «Особенности переходного периода к рыночной экономике», состоящей из трёх параграфов, уделяется внимание рассмотрению теоретико-концептуальных проблем, этапам формирования и развития указанного периода, основным направлениям перехода к рыночной экономике. В данной главе рассматриваются политические, социальные, экономические, духовные закономерности этого этапа исторического развития, его формирования и становления как процесса. Сущность переходного периода рассматривается в контексте общих переходных процессов, изучается с точки зрения имеющегося теоретического и практического международного опыта; здесь исследуются основные направления трансформации экономики (либерализация, стабилизация, приватизация, формирование экономических институтов, перестройка экономики).

Во второй главе «Противоречия переходного периода и их социальные последствия», состоящей из трёх параграфов, рассматриваются причины возникновения противоречий, условия проявления, порожденные ими социальные последствия. В данной главе в соответствии с причинами появления противоречия сгруппированы в следующие группы: противоречия, связанные с природой общественных отношений, противоречия, оставшиеся в

наследие от предыдущего общественного периода развития, противоречия, связанные с личностным антагонизмом.

В третьей главе «Устранение противоречий как важное условие совершенствования образа жизни», состоящей из трёх параграфов, исследуется демократический процесс развития как средство разрешения противоречий, выявляется роль укрепления законности в совершенствовании общественных отношений, совершенствования системы управления в преодолении противоречий, при этом широко использованы результаты проведенных автором социологических исследований.

В заключении диссертации подведены итоги исследования, даны соответствующие рекомендации и предложения.

**V.M.Orujova**

## THE TRANSITION TO A MARKET ECONOMY: THE CONTRADICTIONS AND WAYS TO RESOLVE THEM (SOCIAL- PHILOSOPHICAL ANALYSIS)

In the process of building an independent state transition detection of contradictions in the market economy, the determination of their causes, the action spectrum, and ways to resolve the social impact is an important research challenge.

The thesis consists of an introduction, three chapters (9 paragraphs), conclusion and bibliography. In the introduction the urgency of the problem, the goals and objectives of the research, the methodological framework, marked by scientific innovation, theoretical and practical importance , given the validation of the data and its structure.

In the first chapter "Features of transition to a market economy" (three sections) is given to the consideration of theoretical and conceptual issues, stages of formation and development of this period, the main directions of the transition to a market economy. This chapter focuses on the political, social, economic, spiritual laws of this stage of historical development, its formation and development as a process. The essence of the transition period is considered in the context of the overall transition process is examined from the point of view of theoretical and practical international experience, here examines the main areas of economic transformation (liberalization, stabilization, privatization, creation of economic institutions, the restructuring of the economy) .

In the second chapter, "The contradictions of the transitional period, and their social consequences" (three paragraphs) deals with the causes of conflict, the terms of manifestation, they generate social impact. In this chapter, in accordance with the causes of the appearance of conflict are grouped into the following groups: the controversy surrounding the nature of social relations, contradictions, left over from the previous period of social development, the controversy associated with the personal antagonism.

In the third chapter "Solving conflicts as an important condition for improving the way of life" (paragraph 3) study the development of the democratic process as a means of conflict resolution, shows the role of the rule of law in the improvement of public relations, improve

management in overcoming contradictions, with the widely used the results of the author's sociological Science.

In conclusion thesis summarized the research, given appropriate advice and suggestions.

Avtoreferat AMEA-nın kompüter mərkəzində yığılmışdır.

Ünvan: Hüseyn Cavid prospekti , 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ**

*На правах рукописи*

**ВЕСИХАНУМ МЕЙЛАКУЛИ кызы ОРУДЖЕВА**

# ПЕРЕХОД К РЫНОЧНОЙ ЭКОНОМИКЕ: ПРОТИВОРЕЧИЯ И ПУТИ ИХ РАЗРЕШЕНИЯ

**(социально-философский анализ)**

7207.01- Социальная философия

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание учёной степени доктора наук по философии

**Баку-2017**